

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ QAPISI

**100 ilin qəzeti**

Sayı: 16 (24.398)

*27 aprel 2024-cü il, şənbə*

www.serqqapisi.gov.az

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*


## Prezident həftəsi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə aprelin 22-də Moskvaya işgüzar səfərə gəlib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putin ilə təkbətək görüşü olub.

Həmin gün Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə birgə görüş keçirilib.

***

Aprelin 23-də ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forum keçirilib. Prezident İlham Əliyev forumda iştirak edib və tədbir iştirakçılarının suallarını cavablandırıb.

***

Aprelin 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizdə rəsmi səfərdə olan Qırğız Respublikasının Prezidenti Sadır Japarov ilə məhdud tərkibdə görüşü olub.

Aprelin 24-də Azərbaycan və Qırğızıstan Dövlətlərarası Şurasının 2-ci iclası keçirilib, Azərbaycan-Qırğızıstan sənədlərinin imzalanması mərasimi olub. Sonra Prezident İlham Əliyev və Prezident Sadır Japarov mətbuata bəyanatlarla çıxış ediblər.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniya Federativ Respublikasının Federal Kansleri Olaf Şoltsun dəvəti ilə "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirak etmək üçün aprelin 25-də Füzuli şəhərindən Almaniyaya işgüzar səfərə gəlib.

Prezident İlham Əliyev Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirak edib.

Aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Berlində Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts ilə təkbətək və geniş tərkibdə görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Almaniya Federativ Respublikasının Kansleri Olaf Şolts birgə mətbuat konfransı keçiriblər.

# Ali Baş Komandan cənab İlham Əliyevin növbəti diplomatiya qələbəsi



Səhifə ⇨ 3

# "COP29 və Azərbaycan üçün Yaşıl Baxış"




Səhifə ⇨ 3

# Azərbaycan Rusiya üçün etibarlı ölkə, layiqli tərəfdaşdır



Səhifə ⇨ 3

# Dörd kəndimiz də Azərbaycan Bayrağına qovuşdu



Səhifə ⇨ 10

# Xalqımız sevinc dolu günlər yaşayır

Məlum olduğu kimi, bu günlərdə Azərbaycan ard-arda yeni tarixi uğurlara imza atır. Belə ki, aprelin 17-də Rusiya sülhməramlı kontingenti müvəqqəti yerləşdirildiyi Qarabağdan vaxtından əvvəl çıxarılmağa başlanıldı. Bunun ardınca, aprelin 19-da Azərbaycan ilə Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan ilə Azərbaycan arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın səkkizinci görüşündə razılıq əldə olunaraq Qazax rayonunun Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı kənd yaşayış məntəqələri Azərbaycana qaytarıldı. Aprelin 23-də isə 34 il sonra Azərbaycanla Ermənistan arasında sərhəddə koordinatların dəqiqləşdirilməsi prosesi çərçivəsində ilk sərhəd dirəyi quraşdırıldı. Bunun ardınca daha bir xoş xəbərə şahidlik etdik: 36 il sonra Xankəndidə ilk körpəmiz dünyaya göz açdı. Təbii ki, bu xoş xəbərlər ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da böyük sevinc və qürur hissi ilə qarşılanır. Bunu "Şərq qapısı" qəzeti ilə fikirlərini bölüşən müsahiblərin dediklərindən də görmək mümkündür:

Səhifə ⇨ 10


"Çox məmnunam ki, Azərbaycanın müstəqilliyi yolunda yenə də Naxçıvan dayaqdır" 2

Səlahiyyətli nümayəndə Nazirlər Kabinetinin əməkdaşları ilə görüşüb və yeni Baş nazir kollektivə təqdim edilib 4

Qarış-qarış ZƏFƏR 6

Gözlərə nur, qəlblərə mərhəmət bəxş edən Böyük Alim 8

Yubileyin mübarək, əzəmətli yurdum! 11

Yaz-yay-qış turizminin ideal məkanı 14



Ulu Öndərin arzuladığı Naxçıvan

# “Çox məmnunam ki, Azərbaycanın müstəqilliyi yolunda yenə də Naxçıvan dayaqdır”

## Ümummilli Lider Heydər Əliyev:

**“*Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım yerinə yetirilsin.*”**

Bugünkü yaşayışımıza, mövcudluğumuza, varlığımıza görə dünya durduqca borclu olduğumuz dahi şəxsiyyət Heydər Əliyev üçün ölkəmizin hər bir qarışı müqəddəs ata-baba əmanəti idi – heç nə ilə əvəz olunmayan ən qiymətli, bütün mənalı ömrü və siyasi fəaliyyəti ilə Ulu Öndər Azərbaycanın dünya dövlətləri içərisində tanınması üçün çalışır, ucqarlardan başlayaraq mərkəzə kimi inkişafını diqqətdə saxlayırdı. Görkəmli dövlət xadimi deyirdi: ***“Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım yerinə yetirilsin”.*** Bu, Ulu Öndər Heydər Əliyevin öz Vətəninə, xalqına, dövlətinə bağlılıq yolunun ifadəsi idi. Çünki “Naxçıvanın müstəqillik, milli azadlıq əhval-ruhiyyəsi bütün Azərbaycana təsir edirdi. Məhz bunların nəticəsində Naxçıvan çox ciddi addımlar atır və nəhayət, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əldə edilməsində öz xidmətlərini göstərirdi”.

Günü-gündən qloballaşan və təzadlarla dolu olan yaşadığımız həyatda insan ömrü çox qısadır. Ulu Dədə Qorqud deyirdi: “Gəlimli-gedimli dünya, son ucu ölümlü dünya”. Məsələ bu qısa zaman kəsiyində elə ömür yaşamaqdır ki, cəmiyyət üçün faydalı işlərlə yaddaşlarda qalsın. Belə yaşamaq yolunu tutan kamil insanlar öz yaxşı əməlləri ilə, necə deyərlər, o yolu uzada bilirlər. Həmin əməllərin fövqündə dayanan isə Ulu Tanrının ona bəxş etdiyi ömrü mənsub olduğu dövlətə və xalqa fədakarlıqla xidmət etməkdir.

Bu yolu seçənlər, bu yolda çətinlikləri dəf etməyi bacaranlar mənzilbaşına çatıb arxaya dönəndə qət etdikləri yolun doğruluğunu, bir qədər obrazlı desək, şirinliyini görürlər. Cəmiyyət qarşısında alnıaçıq, üzüağ olduqları üçün ürəkdolusu nəfəs alırlar. Bu da ulu Dədə Qorqudun tövsiyəsidir: “Doğru yolu görürkən, əyri yoldan gəlməyəlim”.

Cəmiyyət öz inkişafı tarixində dəyişən müxtəlif mərhələlərdən keçir. Quruluşlar dəyişir, hakimiyyətlər bir-birini əvəz edir, dünənlə bu gün arasındakı fərq dəyərləndirilir. Dəyişməyən isə ən qiymətli dəyər kimi yaşadığın ömrün gərəkli olmasıdır. Ulu Öndərin yaşadığı ömür kimi...

Yaşadığın ömrün xalqa gərəkli olması ciddi əxlaqi problemdir. Bu hiss, bu mənəvi keyfiyyət insanın daxili təmizliyidir, saflığıdır, mənsub olduğu xalqa sevgi və məhəbbətidir, dövlətə və dövlətçiliyə sədaqətidir, obyektivlik meyarıdır, insan əməyinin əsl qiymətini verən ölçüdür. Yalnız bu yolla güclü şəxsiyyətə çevrilmək, mənalı ömür sürmək, xalqa, cəmiyyətə fayda vermək, hər bir şəraitdə haqqa, ədalətə qahmar çıxmaq olar. Bu yolu seçənlər həmişə yüksəkdə duraraq cəmiyyətdə fəal həyat mövqeyi tutur, xalqın sevimlisinə çevrilir.

Ulu Öndərimiz Heydər Əliyev xalqa, dövlətə xidmət yolunu tutan insanlara böyük dəyər verirdi. Çünki O özü də bu yolun yolçusu idi. Bu gün bu yol böyük ehtiramla davam etdirilir. Elə yaşadığımız bu qədim yurd yerində – Naxçıvanda dövlətə, xalqa xidmət yolunun uca zirvələr fəth etməyin ən düzgün yolu olduğu artıq sübuta yetirilib. Bu gün hər bir naxçıvanlının dövlətə və dövlətçiliyə sədaqəti doğru yolda olmasının ifadəsidir. Dövlətə və dövlətçiliyə sədaqəti isə insanların həyat səviyyəsində, yaşayışında bütün çalarları ilə görmək olar. Bu yol naxçıvanlıların qurub-yaratmaq əzmini günü-gündən yüksəldir, gənclərin, yeniyetmələrin doğma torpağa, xalqa, Vətənə bağlılığını, onun taleyinə cavabdehlik hisslərini gücləndirir, ən qiymətli sərvət olan müstəqilliyimizi qorumağa, onu daha da möhkəmləndirməyə çağırır.

Naxçıvanlılar görürlər ki, bu yol müqəddəs yoldur – davam etdikcə uğurlarımız da artır. Azərbaycan dövlətçiliyinin intişar tapdığı bu qədim diyar müstəqillik illərində keçdiyi sürətli inkişaf yolu ilə, doğrudan da, dövlətçiliyin beşiyi olduğunu sübut edib. Ulu Öndər deyirdi: ***“Naxçıvanın qədim dövlətçilik tarixi vardır. Bu, Azərbaycanın dövlətçilik tarixidir”.*** Ölkəmizin müstəqilliyi üçün taleyüklü məsələlərin bu diyarda öz həllini tapması bu gün hər birimizə böyük qürur hissi yaşadır. Və hər bir naxçıvanlı müstəqillik kimi böyük bir nemətin daha da əbədi olması prinsipi ilə yaşayır. Bu prinsip naxçıvanlıların həyat idealına çevrilib. Fərqi yoxdur, istər yüksək postda duranlar, istərsə də sıravi insanlar üçün dövlətçilik, dövlətçiliyə sədaqət ən ali vəzifədir. Hamı bu vəzifəni yerinə yetirməyi özünün vətəndaşlıq borcu sayır. Bu borc uşaq bağçasından tutmuş ali məktəblərədək təlqin olunur. Belə vətəndaşlıq borcunun layiqincə yerinə yetirilməsi dövlətçiliyin, müstəqilliyin sabahına ən böyük zəmanətdir. Naxçıvanlılar vətəndaşlıq borcunun yerinə yetirilməsini özlərinin həyat kredosu hesab edirlər. Bunun ifadəsidir ki, bir ucu sərhəd bölgəsi Sədərək, bir ucu bağlar diyarı Ordubad, dağlar qoynunda füsunkarlıq rəmzi olan Şahbuz, digər bölgələrimiz inkişaf və tərəqqinin yeni müstəvisindədir. Rayon mərkəzləri ilə yanaşı, ucqar dağ kəndləri, sərhəd və ən kiçik yaşayış məntəqələri qəsəbə timsallıdır.

Ancaq onu da deyək ki, görülən bu işlərin blokada şəraitində yaşayan bir məmləkətdə reallaşdırılması da kiçik məsələ deyil. Və bütün bunların təməlində doğma yurda bağlılıq, sevgi və məhəbbət, insan amilinə, yurd amilinə böyük diqqət, Ulu Öndər Heydər Əliyev ideyalarına böyük sədaqət dayanır.

Bu illər ərzində hər gün, hər saat dəyişən məmləkətimiz başdan-ayağa, sözün həqiqi mənasında, hər sahədə yeni quruculuq donundadır. Gündən-günə sayı artan məktəb, səhiyyə, mədəniyyət ocaqlarının yeni binaları, salınan yaşayış massivləri, yeni emal və istehsal müəssisələrinin həyata vəsiqə alması, insanların məşğulluq probleminin həllinə nail olunması, informasiya-kommunikasiya texnologiyalarının ən son nailiyyətlərinin tətbiqi... Bunlar Naxçıvanın bugünkü mənzərəsi, görkəmli dövlət xadimi Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının qədim diyarımızda uğurla həyata keçirilməsidir.

Bu da bir həqiqətdir ki, Naxçıvan son onilliklərdə buraya gələnlərdə böyük tikinti meydançası təsəvvürü yaradır. Hər il paytaxt şəhərimizdən tutmuş ən ucqar sərhəd və dağ yaşayış məntəqələrində çoxsaylı yeni obyektlər istifadəyə verilir. Muxtar respublikanın gözəlliyə qovuşmasında bu obyektlər mühüm rol oynayır.

Həyata keçirilən uğurlu siyasət muxtar respublikanın sənayeləşmə prosesini daha da sürətləndirib.

İnkişaf göstəriciləri rabitə və yeni texnologiyalar sahəsini də əhatə edib. Əhaliyə nümunəvi rabitə xidmətinin göstərilməsi məqsədilə müasir rabitə sistemi yaradılıb, ən ucqar dağ kəndlərində belə genişzolaqlı, yüksəksürətli internet və digər müasir telekommunikasiya şəbəkələri istifadəyə verilib.

Muxtar respublikada jurnalistikanın da inkişafına böyük önəm verilir. Qədim diyarımızda söz, fikir və mətbuat azadlığının təmin edilməsi, sərbəst yaradıcılıq imkanları üçün müasir maddi-texniki baza istifadəyə verilib.

Naxçıvanda əsası Ümummilli Lider tərəfindən qoyulan ordu quruculuğu siyasəti bu gün uğurla davam etdirilir. Belə ki, Əlahiddə Ümumqoşun Ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi, ixtisaslı hərbçi kadrların yetişdirilməsi ilə hərbi potensialı əsaslı şəkildə möhkəmləndirib.

Aparılan ordu quruculuğu siyasətinin bəhrəsidir ki, Əlahiddə Ümumqoşun Ordu muxtar respublikanın ərazisini qorumaqla yanaşı, İkinci Qarabağ müharibəsində də əsl rəşadət və vətənpərvərlik nümunəsi göstərib. Bu azadlıq mücadiləsində Əlahiddə Ümumqoşun Ordunun əsgər və zabitləri də qədim diyarda formalaşmış vətənpərvərlik, torpağa bağlılıq, yurdu sevmək kimi keyfiyyətlərini ortaya qoydular. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev çıxışlarında bunu dəfələrlə yüksək dəyərləndirib: ***“Naxçıvanlılar da İkinci Qarabağ müharibəsində bütün digər bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər... Böyük qəhrəmanlıq göstəriblər. Və torpaqlarımızın azad edilməsində fədakarlıq göstəriblər. Şəhidlər veriblər”.*** Konkret olaraq deyək ki, inkişaf edən, müasirləşən, abadlaşan Naxçıvan bu gün mənfur düşmən üçün ikiqat gözdağıdır.

Naxçıvanda görkəmli dövlət xadiminin yaratdıqlarını yaşatmaq, daha da zənginləşdirmək bu günün gerçəkləridir. Ulu Öndərin yoluna ehtiram və sədaqətini öz fəaliyyəti ilə göstərən ölkə başçısının muxtar respublikada yeni idarəetmə modelinin tətbiqi ilə bağlı imzaladığı 2022-ci il 22 dekabr tarixli Fərmanla Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi haqqında Əsasnamə təsdiq olunub. Bu isə naxçıvanlılarda yeni ovqat yaradıb, onların qurub-yaratmaq əzmini daha da yüksəldib. Ata vəsiyyətini ən müqəddəs vəzifə sayan ölkə başçısının Naxçıvanın inkişafı üçün lazım olan hər bir işi görməsi isə ərazi cəhətdən blokada şəraitində yaşayan bu yurd yerinin sakinlərinin heç bir çətinliklə üzləşməməsi məqsədi daşıyır. Elə cənab İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq edilən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” bunun bir daha sübutudur. Ötən ilin sonunda naxçıvanlılar daha bir sevinc yaşadılar. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev “Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında” 2023-cü il 30 dekabr tarixli Sərəncam imzaladı. Sərəncamda deyilir: “Naxçıvanın davamlı inkişafında Ümummilli Lider Heydər Əliyevin böyük xidməti vardır. Ulu Öndər hakimiyyətə gəldiyi vaxtlardan etibarən daim Naxçıvanı diqqətdə saxlamış, muxtar respublikanın gələcəyi ilə bağlı ən mühüm qərarların təşəbbüskarı olmuşdur”.

Sərəncamın imzalanmasından ötən qısa müddət ərzində muxtar respublikamızda, paytaxt Bakı şəhərində, qardaş Türkiyə Respublikasında tədbirlər keçirilmiş, həmin silsilə tədbirlər davam etdirilməkdədir.

Bu gün hər bir naxçıvanlı sevinir ki, ovaxtkı təşəbbüslər bu gün artıq ənənəyə çevrilib. Ona görə də sirr deyil ki, dünən Naxçıvanın qonağı olanlar bu gün təəccüblərini gizlədə bilmirlər. Hər addımda bir yenilik görmək, hər gün bir təzəliklə rastlaşmaq naxçıvanlılar üçün adi hala çevrilib. Naxçıvan yenidən qurulduqca daha da gözəlləşir. Xaricdən buraya gələn və yurdumuzun inkişafı barədə bir qədər məlumatı olan bir turistin sözlərini xatırlayıram: “Bu yeniliklər gündəlik olaraq sizin gözləriniz qarşısında baş verdiyi üçün sizə adi görünür”. Bütün bunlar görkəmli dövlət xadiminin layiqli varisi, ölkə başçısı cənab İlham Əliyevin Naxçıvana qayğısının bəhrələri, Ulu Öndər Heydər Əliyevin arzularının reallaşmasıdır. Dahi Öndər də uzaqgörənliklə bunu bilərək deyirdi: ***“Çox məmnunam ki, Azərbaycanın müstəqilliyi yolunda yenə də Naxçıvan dayaqdır”.***

**Muxtar MƏMMƏDOV**

# Azərbaycan Rusiya üçün etibarlı ölkə, layiqli tərəfdaşdır

***Dövlət başçılarının görüşü qarşılıqlı münasibətlərin sağlam təməllər üzərində qurulduğunu göstərir***



Aprelin 22-də Azərbaycan Prezidenti cənab İlham Əliyev Rusiyaya səfər etdi. Rusiya sülhməramlı qoşunlarının Azərbaycandan çıxarılması və Qazax rayonunun dörd kəndinin Azərbaycana qaytarılmasından dərhal sonra dövlət başçısının Rusiyaya səfəri həm də XX əsrin ən böyük tikinti layihələrindən sayılan Baykal-Amur Magistralının (BAM) tikintisinin 50 illiyi münasibətilə keçirilən tədbirə dəvət olunması baxımından böyük əhəmiyyət daşıyırdı. Cənubi Qafqazda və dünyada gedən tarixi proseslər fonunda Azərbaycan Prezidentinin Rusiya Prezidenti ilə görüşünü iki ölkə arasındakı münasibətlərin hazırkı inkişafı üçün yeni mərhələ də saymaq olar. Təsadüfi deyil ki, ölkə başçıları görüşdə Rusiya və Azərbaycan arasındakı əlaqələrin müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə ilə daha da möhkəmləndiyini və inkişaf etdiyini bildirdilər, qarşılıqlı ticarətin 4 milyard dolları ötdüyü qeyd edildi. Həmin gün Rusiya mediası və ekspertlər iki ölkə arasındakı proseslərin indiki vəziyyəti, bölgədə gedən proseslərdə Rusiya və Azərbaycanın xüsusi rolunu vurğuladılar. Bu açıqlamalarda son proseslərin qiymətləndirilməsi də kifayət qədər yüksək səviyyədə idi. Məsələn, Rusiya Beynəlxalq Məsələlər Şurasının eksperti Aleksey Naumov Rusiya sülhməramlı qüvvələrinin Qarabağdan çıxarılmasını Rusiya ilə Azərbaycan arasındakı münasibətlərin etibarlı olmasının sınaqdan uğurla çıxarılması ilə izah etdi. Bildirdi ki, bu, Moskva ilə Bakı arasındakı əlaqələrin möhkəmliyinin göstəricisidir. Eyni zamanda onu da əlavə etdi ki, Azərbaycan Ermənistandan fərqli olaraq özünü etibarlı tərəfdaş kimi, Prezident cənab İlham Əliyev isə özünü danışıqları apara bilən siyasətçi kimi göstərdi. Ölkələrimiz arasındakı müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə isə Ermənistanın güzəştli vəziyyətinə faktiki olaraq son qoydu. Bu yalnız İrəvanın hərəkətlərindən deyil, eyni zamanda Azərbaycanın ləyaqətli siyasət yürütməsindən irəli gəldi.

Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının beynəlxalq məsələlər üzrə komitəsinin sədri Qriqori Karasin isə sülhməramlı hərbi kontingentin Azərbaycan ərazisindən çıxarılmasının qanunauyğun və məntiqli olduğunu, Azərbaycanla əlaqələrin yüksək səviyyədə olduğunu bildirdi. Bununla bərabər, "TASS", "RİA Novosti", "Ren.tv", "Moskovskiy Komsomolets", "İnterfaks", "News.ru", "Arqumentı i faktı", "Qazeta.ru" və digər kütləvi informasiya vasitələri görüşü geniş şəkildə işıqlandıraraq ikitərəfli münasibətlərdə təhlükəsizlik, qarşılıqlı ticarət, nəqliyyat layihələri və sair mövzularda müzakirələrin aparılacağını, hər iki tərəfdə də bu sahələr üzrə böyük potensialın olduğunu bildirdilər.

Təbii ki, görüşün maraqlı tərəflərindən biri də müasir dünyada nəqliyyat-kommunikasiya əlaqələrinin əhəmiyyəti baxımından Baykal-Amur Magistralı kimi böyük layihənin həyata vəsiqə almasında Rusiya və Azərbaycanın rolundan bəhs olunması idi. Rusiya Prezidenti Vladimir Putin Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə görüşündə qeyd etdi ki, BAM-ın tikintisinin başlanmasının yarıməsrlik yubileyi münasibətilə Azərbaycan Prezidenti cənab İlham Əliyevi təbrik etməkdən səmimi-qəlbdən şadam. Onun atası, BAM-ın bütün inşaatçıları bunu yaxşı bilir, Heydər Əlirza oğlu BAM-ın tarixində müstəsna, böyük rol oynayıb. Heydər Əlirza oğlu SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi Baykal-Amur Magistralının tikintisinə kuratorluq edirdi, bu çox çətin layihənin baş tutması üçün əlindən gələni əsirgəmirdi.

Azərbaycan Prezidenti isə bildirdi ki, Heydər Əliyev amili Rusiya və Azərbaycanın dövlətlərarası münasibətlərində həmişə mühüm rol oynayıb və oynayacaq. Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsinə görə BAM inşaatçılarına təşəkkür edən dövlətimizin başçısı Anqoya qəsəbəsindəki vağzala Ulu Öndərin adının verilməsini xatırladıb, bu sahədə böyük zəhmətinin olduğunu qeyd edib: ***"BAM inşaatçıları yaxşı bilirlər ki, o, praktiki olaraq piyada, qatarla, vertolyotla, çətin şəraitdə Bratskdan Vladivostoka, Naxodkaya qədər uzun məsafə qət edib, on gün ərzində sevinc və kədərini BAM inşaatçıları ilə bölüşüb".*** Həmçinin dövlət başçısı bildirdi ki, BAM-ı təsadüfən ümumittifaq tikintisi adlandırmırdılar. Əlbəttə, biz fəxr edirik ki, azərbaycanlı inşaatçılar, mütəxəssislər tikintidə fəal iştirak ediblər.

Təsadüfi deyil ki, həmin gün "Arqumentı i faktı" nəşri Ümummilli Lider Heydər Əliyevin Baykal-Amur Magistralının tikintisinə verdiyi töhfəni xatırladaraq qeyd edib ki, Vladimir Putin Heydər Əliyevin SSRİ dövründə BAM-ın tikintisi ilə bağlı məsələlərə birbaşa nəzarət etdiyini və Rusiyanın buna görə ona minnətdar olduğunu vurğuladı.

Beləliklə, Azərbaycan Prezidentinin Rusiyaya növbəti səfəri də uğurlu anlarla yaddaqaldı. Rusiya Prezidentinin BAM-ın müasir əhəmiyyəti və layihənin uğurla həyata keçirilməsində Ulu Öndər Heydər Əliyevin rolunu məxsusi şəkildə qeyd etməsi isə dahi şəxsiyyətin, eləcə də cənab İlham Əliyevin şəxsində Azərbaycana verilən yüksək qiymətdir: "İndi biz, yəqin ki, Siz bu barədə bilirsiniz, Şərq poliqonu adlı marşrutu inkişaf etdiririk, həm BAM, həm də Transsib onunla bağlıdır. Beləliklə, bütün bunlar bu gün də bizim üçün əhəmiyyətlidir, həm də çox böyük əhəmiyyətə malikdir. Düşünürəm, hətta əminəm ki, atanızın bu nəhəng layihənin həyata keçirilməsinə sərf etdiyi bütün səylər, zəhmət çəkdiyi illər bu gün də təkcə Rusiya üçün deyil, həm də bütün Müstəqil Dövlətlər Birliyi üçün mühüm rola malikdir…

✍ **Səbuhi HƏSƏNOV**

## Ali Baş Komandan cənab İlham Əliyevin növbəti diplomatiya qələbəsi, *yaxud ən müasir tariximizin 19 apreli*

19 apreldə müasir tariximizin ən möhtəşəm gününü yaşadıq – Azərbaycan-Ermənistan sərhədlərinin delimitasiya üzrə Dövlət komissiyalarının 8-ci iclasında tarixi qərar qəbul edildi. Bir güllə belə atılmadan Ermənistan tərəfi 1990-cı illərin əvvəllərindən işğal altında saxladığı Qazax rayonunun 4 anklav olmayan kəndinin Azərbaycana qaytarılmasına razılıq verdi. Bu, tariximizin ən möhtəşəm xəbəridir. Nəzərə alsaq ki, Müzəffər Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin uğurlu xarici və daxili siyasəti, Silahlı Qüvvələrimizin rəşadəti sayəsində Azərbaycan ötən il ərazi bütövlüyünün ən yüksək zirvəsini fəth etdi. Cənab Prezident tərəfindən verilən bütün vədlər, qarşıya qoyulan bütün vəzifələr icra olunub. Azərbaycan 44 günlük Vətən müharibəsində işğal altındakı ərazilərini azad edib. Keçən ilin sentyabrında keçirdiyi qısamüddətli antiterror tədbirləri sayəsində isə suverenliyini tam bərpa edib. Azərbaycan qalib xalq, qalib ölkə kimi adını tarixə yazdırıb. Bu gün Xankəndidə, Xocalıda, Ağdərədə, Xocavənddə Azərbaycan Bayrağının dalğalanması milli ləyaqət təntənəsidir. Növbəti qələbə ilə Azərbaycan xalqı olaraq daha da qürurlandıq. Bu günlərdə rusiyalı sülhməramlıların bölgədən çıxmasından sonra 4 qeyri-anklav kəndin qaytarılması cənab İlham Əliyevin xalqa növbəti müjdəsi oldu. Azərbaycan torpaqlarını qarış-qarış toplayan Ali Baş Komandan Qərbin dəstəklədiyi Ermənistanı məğlub edib bütün niyyətlərini puça çıxardı, Rusiya və Qərb arasında inanılmaz tarazlaşdırılmış siyasət həyata keçirdi, möhtəşəm bir diplomatiya yürütdü, həm meydanda, həm də siyasi masada qələbə qazandı. Azərbaycanın guya Ermənistana hücum etməyə hazırlaşması, Ermənistan ərazisində hərbi hədəflərin olmasına dair Fransa və digər Qərb dövlətlərinin təbliğatı da bir daha ifşa olundu. Azərbaycan ABŞ və Aİ-nin bu məsələlərə müdaxiləsinə imkan vermədi, Ermənistan və Azərbaycan birgə qarşılıqlı anlaşma şəraitində dil tapıb məsələni həll etdilər. Qazax rayonunun 4 anklav olmayan kəndinin Azərbaycana qaytarılması bir daha onu göstədi ki, Qərb dövlətləri və neoimperialist dairələr nə qədər proseslərdən uzaq dayansalar, Cənubi Qafqazda sülh və əmin-amanlıq o qədər tez təmin olunacaq. Bu sülh, əmin-amanlıqla biz yeni mərhələyə qədəm qoyuruq. Bu mərhələdə biz çox diplomatik qələbələrin şahidi olacağıq. Bu qələbələrin bir müəllifi var: Prezident, Ali Baş Komandan İlham Əliyev!!!

***"Biz hər zaman sözümüzə, vədimizə, imzamıza sadiq qalmışıq, dəyişməmişik və dəyişməyəcəyik. Yolumuz da, hədəfimiz də bəllidir və bu yola, bu hədəfə doğru daim inamla, qətiyyətlə irəliləyəcəyik!"*** bəyanından da göründüyü kimi, müstəqil Azərbaycan Böyük Yolun – Heydər Əliyev yolunun Müzəffər davamçısı olan Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə strateji hədəflərinə doğru addım-addım irəliləyir. Prezident cənab İlham Əliyevin xalqa müraciətində dediyi kimi: ***"Nəyi necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm. Azərbaycan xalqı mənə inanır. Mən də bu inama arxalanaraq bütün lazımi tədbirləri görürəm, ölkəmizi inamla idarə edirəm".***

**Sara ƏZİMOVA**
*"Şərq qapısı" qəzetinin baş redaktoru*

# "COP29 və Azərbaycan üçün Yaşıl Baxış":
## Azərbaycan sülh və əməkdaşlıq məkanı kimi

Bu gün Azərbaycanın yüksək səviyyəli mötəbər tədbirlərə uğurla ev sahibliyi etməsi dövlətimizin beynəlxalq aləmdə gündən-günə artan nüfuzundan xəbər verir. Xüsusilə son illər Azərbaycanın regionda aparıcı aktora çevrilməsi, dünyada artan nüfuzu onun beynəlxalq təşkilatlarla əlaqələrində və onların fəaliyyətində fəal iştirakına gətirib çıxarıb. Artıq dünya dövlətləri Azərbaycanı etibarlı, mühüm tərəfdaş, sözü imzası qədər dəyərli olan ölkə kimi qəbul edirlər. Bu gün Azərbaycan bir sıra beynəlxalq qurumlarda, sadəcə, üzv kimi təmsil olunmur, həm də bir çox qərarların qəbulunda və icrasında yaxından iştirak edir.

ADA Universitetində 23 aprel tarixdə keçirilən "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda ölkə Prezidenti cənab İlham Əliyevin çıxışı dünya dövlətlərinə ölkəmizin nə qədər təhlükəsiz, bölgədə sülh və davamlı inkişafın təminatçısı olduğunu bir daha nümayiş etdirdi. Üçüncü Dünya müharibəsinin izlərinin göründüyü, müxtəlif qütblərdə xaos və anarxiyanın tüğyan etdiyi bir zamanda ölkəmiz sabit, təhlükəsiz bir bölgəyə çevrilib. Təbii ki, bütün bu nailiyyətlərin, uğurların müəllifi siyasi lider cənab İlham Əliyevdir. Onun yaratdığı reallıqlardır.

Bu gün dövlətimizin başçısı bölgəmizdə düşmənçiliyə son qoyulması, qarşılıqlı etimada əsaslanan davamlı sülhə, dincliyə, əmin-amanlığa nail olunması uğrunda təşəbbüslər irəli sürür. Bu təşəbbüslər isə Cənubi Qafqazda sabitlik və inkişaf üçün zəruri şəraitin yaradılmasına xidmət edir.

Bu gün təkcə regional deyil, qlobal miqyaslı məsələlərdə də Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycanın mövqeyi və rəyi mütləq nəzərə alınır. Eyni zamanda da ölkəmizin beynəlxalq tədbirlərin keçirildiyi, sivilizasiyalararası dialoqların baş tutduğu vacib platformaya çevrilməsi onun dünyada hansı yüksək mövqeni tutduğunu sərgiləyir.

Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a ev sahibliyi deyilənlərin real təsdiqidir. Bu Azərbaycanın qüdrətini bir daha dünyaya göstərir və beynəlxalq aləmdə böyük etimad qazandığını nümayiş etdirir.

ADA Universitetində keçirilən "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda ölkəmizin uğurlarının səbəblərindən danışan dövlətimizin başçısı qeyd etdi: ***"Biz heç vaxt Azərbaycan üçün potensial təhlükə yarada biləcək heç bir işə qoşulmamışıq. Biz hər zaman İran, Rusiya, Gürcüstan və Avropa, həmçinin Türkiyədə qardaşlarımız ilə münasibətlərimizdə ədalətli olmuşuq. Uğurumuzun səbəbi bundadır… Hesab edirəm ki, əsas çıxış yolu və üsul düzgün və səmimi olmaqdır. Biz qonşularla yaxşı və bəzi hallarda əla münasibətləri qura bilmişik".***

Sülhü, ədaləti, beynəlxalq hüququ hər zaman əsas tutan dövlətimizin başçısı ölkəmizin multikultural dəyərlərə də hər zaman töhfə verdiyini dilə gətirdi: ***"Çünki Azərbaycan cəmiyyəti əsrlər boyu hər iki sivilizasiyanın – Avropa və İslam sivilizasiyalarının dəyərlərini böyük dərəcədə qəbul edib".***

Bu gün regionda dayanıqlı sülhün və təhlükəsizliyin yaradılması üçün sülh müqaviləsinə toxunan dövlətimizin başçısı bu məsələnin həllinə yaxın olduğumuzu qeyd etdi: ***"Biz işğal zamanı buna heç vaxt yaxın olmamışıq. Həmin vaxt biz baza prinsipləri üzərində belə razılığa gələ bilmirdik. İndi bizim sülh sazişinin necə olması ilə bağlı ümumi anlayışımız var. Biz, sadəcə, təfərrüatları işləməliyik. Lakin, əlbəttə, hər iki tərəfə vaxt lazımdır".***

"COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forum dünya dövlətlərinə bir daha nümayiş etdirdi ki, Azərbaycanın gücü bütün komponentlərin paralel və balanslı inkişafında, daxili sabitliyin təminatında, ölkənin beynəlxalq nüfuzunun möhkəmləndirilməsində, onu regional güc mərkəzinə çevirilməsindədir.

**Arzu ABDULLAYEV**
*Naxçıvan Dövlət Universitetinin prorektoru, tarixçi-alim*



# Səlahiyyətli nümayəndə Nazirlər Kabinetinin əməkdaşları ilə görüşüb və yeni Baş nazir kollektivə təqdim edilib

Aprelin 25-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Azərbaycan Respublikası Prezidentinin təqdimatına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsinə təyin edilmiş Ceyhun Cəlilovu Nazirlər Kabinetinin kollektivinə təqdim edib.

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli qeyd edib ki, təyin edilmiş hər hansı bir dövlət məmuru öz işinin öhdəsindən gəlməli, dövlət başçısının qarşıya qoyduğu vəzifələri layiqincə icra etməlidir. Dövlət məmuru ətrafda ətalətin yaranmasına yol verməməli və öz üzərinə düşən vəzifələri vaxtında yerinə yetirməlidir.

Fuad Nəcəfli bildirib ki, Nazirlər Kabinetinin vəzifəsi sosial- iqtisadi proqramların vaxtında və keyfiyyətli icra edilməsidir. Ancaq bir çox hallarda müvafiq proqramların icrası zamanı gecikmələr yaşanırdı. Nazirlər Kabineti fəaliyyətini düzgün istiqamətdə qurmaqda çətinlik çəkirdi. Bu da Naxçıvan Muxtar Respublikasında bir sıra işlərin ləng getməsinə səbəb olurdu. Güman edirəm ki, artıq bu kimi hallar tez bir zamanda aradan qaldırılacaq, bütün gücümüzü, səylərimizi birləşdirib muxtar respublikanın inkişafına mühüm töhfələr verəcəyik.

Səlahiyyətli nümayəndə diqqətə çatdırıb ki, Prezident cənab İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmişdir. Adıçəkilən Proqram çox əhəmiyyətli sənəddir. Dövlət Proqramının məqsədi davamlı iqtisadi artımın təmin edilməsi, vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılması, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsi və ölkə iqtisadiyyatına tam inteqrasiyasını təmin etməkdən ibarətdir. Muxtar respublikanın müasir yol xəritəsi sayılan bu Dövlət Proqramı iqtisadiyyatın inkişafı, o cümlədən əlverişli biznes mühitinin yaradılması, ticarətin, ixracyönümlü sənayenin, kənd təsərrüfatı məhsulları istehsalının və emalının, turizmin, sosial sektorun, insan kapitalının və infrastruktur təminatının inkişafı, elektrik enerjisi istehsalının artırılması, institusional inkişaf, ətraf mühitin mühafizəsinin gücləndirilməsi kimi 11 prioritet istiqamət üzrə fəaliyyətlərin dəstəklənməsini nəzərdə tutan sənəddir.



Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli onu da qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında 2023-cü il 30 dekabr tarixdə Sərəncam imzalayıb. Azərbaycan dövlətçiliyi tarixində mühüm yer tutan Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illik yubileyinin qeyd edilməsi muxtar respublikanın tarixində mühüm hadisədir. Ümummilli Lider Heydər Əliyevin ***"Naxçıvanın muxtariyyəti tarixi hadisədir"*** fikirini diqqətə çatdıran səlahiyyətli nümayəndə onu da bildirib ki, addımlarımızı elə atmalıyıq ki, Prezident cənab İlham Əliyevin muxtar respublikanın inkişafı ilə bağlı verdiyi tapşırıqları vaxtında və layiqincə yerinə yetirək.

# Ali Məclisin yaz sessiyasının növbəti plenar iclası keçirilib

Aprelin 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yaz sessiyasının növbəti plenar iclası keçirilib.

İclasın gündəliyinə verilən məsələ – Ceyhun Ramiz oğlu Cəlilovun Naxçıvan Muxtar Respublikasının Baş naziri təyin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin təqdimatına baxılması ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov bildirib ki, Naxçıvan Muxtar Respublikası Konstitusiyasına əsasən Ali Məclisin sədri Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti tərəfindən təqdim olunmuş şəxsin namizədliyini Ali Məclisə təqdim edir.

Təqdimat oxunub, namizəd haqqında ətraflı məlumat verildikdən sonra "Ceyhun Ramiz oğlu Cəlilovun Naxçıvan Muxtar Respublikasının Baş naziri təyin edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı səsə qoyularaq qəbul edilib.

Anar İbrahimov Ali Məclis adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yüksək etimadı ilə yeni vəzifəyə təyin olunması münasibətilə Ceyhun Cəlilovu təbrik edib, gələcək fəaliyyətində uğurlar arzulayıb.





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yüksək etimad göstərərək onu Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsinə təqdim etdiyinə görə dərin minnətdarlığını bildirən Ceyhun Cəlilov çıxış edərək deyib ki, Azərbaycan dövləti, həqiqətən də, tarixinin ən qüdrətli dövrlərini yaşamaqdadır. Bunu həm ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası ilə əlaqədar həyata keçirilən hərbi və diplomatik əməliyyatlardan, həm də dövlətin digər bütün istiqamətlərdə siyasətinin nəticəsində əldə etdiyi uğurlardan görürük. Dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır və Azərbaycan dövlətinin məqsədi Azərbaycan vətəndaşının yüksək rifahıdır.

Yeni Baş nazir qeyd edib ki, Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının, təqribən, yarıməsrlik dövrü xalqımızın Ümummilli Lideri Heydər Əliyevin fəaliyyəti ilə sıx bağlıdır. Məhz Ulu Öndərin çoxşaxəli fəaliyyəti sayəsində ölkəmizin bütün regionlarının, o cümlədən Naxçıvanın sosial-iqtisadi inkişafının möhkəm bünövrəsi qoyulub və bu siyasət davam etdirilməkdədir. Azərbaycan Respublikası regionlarının, o cümlədən Naxçıvan Muxtar Respublikasının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Bu strategiyanın həyata keçirilməsində, o cümlədən bölgələrin inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş Dövlət proqramları xüsusi əhəmiyyət kəsb edir. Bu inkişaf strategiyasının davamı olaraq Azərbaycan Respublikası Prezidentinin 5 iyun 2023-cü il tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" təsdiq edilib. Proqramın təsdiq edilməsi ilə Naxçıvan Muxtar Respublikasının inkişafına dair prioritet istiqamətlər müəyyən edilib və ölkə başçısı tərəfindən bütün istiqamətləri əhatə edən tapşırıqlar verilib. Dövlət Proqramının icrasının Naxçıvan Muxtar Respublikasının yaranmasının 100-cü ildönümünə təsadüf etməsi bu istiqamətdə qarşıya qoyulan hədəflərin icrasında təşviqedici mexanizm qismində çıxış edir.

Qarşıda duran vəzifələrə görə tədbirlərin kompleks və uğurla icra edilməsi məqsədilə səylərini əsirgəməyəcəyini deyən Ceyhun Cəlilov muxtar respublika rəhbərliyinə, təqdimatı yekdilliklə qəbul etdiyinə görə deputatlara təşəkkür edib.

Ali Məclisin sədr müavini Anar İbrahimov diqqətə çatdırıb ki, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti icra hakimiyyətini həyata keçirir. Nazirlər Kabineti muxtar respublikada yuxarı icra orqanıdır, Ali Məclisə tabedir və müntəzəm olaraq onun qarşısında hesabat verir. Ali Məclis hökumətlə birbaşa, sıx şəkildə çalışan qurumlardan biridir. İnanıram ki, Ceyhun Cəlilovun yüksək idarəetmə bacarığı hökumətin işinə də fayda verəcək.

Ali Məclisin sədr müavini qeyd edib ki, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Baş nazirinin vəzifədən azad edilməsi Ali Məclisin həll etdiyi məsələlərə aid edilib. Yeni Baş nazirin təyin edilməsi ilə bağlı Səbuhi Məmmədovun Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsindən, eyni zamanda Ceyhun Cəlilovun Baş nazir təyin edilməsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsindən azad edilmələri ilə bağlı qərar layihələri hazırlanıb.

"Səbuhi Hidayət oğlu Məmmədovun Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsindən azad edilməsi haqqında" və "Ceyhun Ramiz oğlu Cəlilovun Naxçıvan Muxtar Respublikasının Əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsindən azad edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarları səsə qoyularaq qəbul edilib.

Bununla da Ali Məclisin yaz sessiyasının növbəti plenar iclası başa çatıb.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## C.R.Cəlilovun Naxçıvan Muxtar Respublikasının Baş naziri təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin

## Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 37-ci maddəsini və 25-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Ceyhun Ramiz oğlu Cəlilov Naxçıvan Muxtar Respublikasının Baş naziri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 25 aprel 2024-cü il*

## C.R.Cəlilovun Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsindən azad edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin

## Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 5-ci bəndini və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 54-cü maddəsini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Ceyhun Ramiz oğlu Cəlilov Naxçıvan Muxtar Respublikasının Əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 25 aprel 2024-cü il*

## S.H.Məmmədovun Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsindən azad edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin

## Qərarı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

Səbuhi Hidayət oğlu Məmmədov Naxçıvan Muxtar Respublikasının Baş naziri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 25 aprel 2024-cü il*

## F.T.Bağırzadənin Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

## Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Fərid Talətdin oğlu Bağırzadə Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini təyin edilsin.

2. Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Fərid Talətdin oğlu Bağırzadəyə həvalə edilsin.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 25 aprel 2024-cü il*

## Naxçıvan Muxtar Respublikasında sahibkarlıq fəaliyyəti sahəsində fərqlənən şəxslərin təltif edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 30-cu maddəsini və 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında sahibkarlıq sahəsində səmərəli fəaliyyətlərinə görə fərqlənən aşağıdakı şəxslər təltif edilsinlər:

**“Rəşadətli əməyə görə” nişanı ilə**

Hümbətov Səxavət Məmməd oğlu

Novruzov Namiq Yaqub oğlu

Rəhimov Seyfəddin Rəhman oğlu

Rzayev Teymur Yaqub oğlu

**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini**

**Anar İBRAHİMOV**

*Naxçıvan şəhəri, 26 aprel 2024-cü il*

## *“Muxtariyyətin 100 illik tarixi dövründə yerli özünüidarəetmənin formalaşması”* mövzusunda konfrans keçirilib





Aprelin 23-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi və Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin birgə təşkilatçılığı ilə “Muxtariyyətin 100 illik tarixi dövründə yerli özünüidarəetmənin formalaşması” mövzusunda konfrans keçirilib. Naxçıvan şəhərindəki “Gənclik” Mərkəzində baş tutan konfransda nazirliyin əməkdaşları, yerli icra hakimiyyətləri aparatlarının əməkdaşları, bələdiyyə sədrləri və üzvləri iştirak ediblər.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

“Gənclik” Mərkəzində davam edən tədbirdə Ulu Öndərin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Konfransda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli çıxış edərək bildirib ki, yaşadığımız tarixi günlər bizim üçün çox əhəmiyyətlidir. Müzəffər Ali Baş Komandanın xüsusi siyasi qətiyyəti nəticəsində artıq 2020-ci ildən torpaqlarımızın bütövlüyü təmin edilib. Son günlərdə Rusiya sülhməramlılarının azad olunmuş ərazilərdən çıxarılması və Qazaxın 4 kəndinin azad edilməsi isə siyasi iradənin növbəti təntənəsidir.

Qeyd olunub ki, Ulu Öndər siyasi hakimiyyətə yenidən qayıdandan sonra bir çox sahələrdə olduğu kimi, yerli özünüidarəetmə sahəsində də canlanma baş verib. Muxtar respublikanın 100 illik yubileyinin qeyd edildiyi ərəfələrdə şahid oluruq ki, yerli özünüidarəetmə institutu muxtariyyətin tarixi qədər bir dövrdə formalaşıb. Muxtar respublikada 2023-cü ildən etibarən müasir həyat standartlarına uyğun islahatların başlanıldığını diqqətə çatdıran səlahiyyətli nümayəndənin müavini vurğulayıb ki, bu islahatlarda birbaşa əhali ilə işləyən qurum kimi bələdiyyələrin rolu əvəzsizdir.

Konfransda Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri vəzifələrini müvəqqəti icra edən, nazir müavini Hüseyn Səfərov bələdiyyə institutunun keçdiyi inkişaf yolundan danışıb. Nazir müavini vurğulayıb ki, mövcud qanunvericiliyin tələbinə əsasən bu il ölkəmizdə növbəti bələdiyyə seçkilərinin keçirilməsi nəzərdə tutulur. Artıq bu istiqamətdə dövlət səviyyəsində müvafiq işlərə başlanılıb. Belə ki, ölkə başçısı tərəfindən 16 aprel 2024-cü il tarixdə imzalanmış Fərmanla “Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa edilən dəyişikliklər qüvvəyə minib. Dəyişikliyə əsasən əhalisinin sayı 3000 nəfərdən və ya ev təsərrüfatlarının sayı 1000 vahiddən az olan bələdiyyədə yaranan sosial-iqtisadi vəziyyət, tarixi və digər yerli xüsusiyyətlər nəzərə alınmaqla həmin bələdiyyə digər bələdiyyə ilə birləşdirilir. Dəyişiklik yerli özünüidarəetmədə qeyri-effektiv xərclərin aradan qaldırılmasına, bu qurumların maliyyə-iqtisadi və kadr potensialının artırılması və bununla da yerli əhəmiyyətli məsələlərin həllində dövlətin maliyyə yükünün azalması, habelə bu sahəyə dövlət nəzarətinin daha da gücləndirilməsi məqsədinə xidmət edir.

Konfransda AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun elmi katibi, tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimov, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Bələdiyyələrlə iş mərkəzinin rəisi Xəyal Eyvazov, Şahbuz rayonu Kolanı bələdiyyəsinin sədri Gülnarə İsmayılova, Naxçıvan bələdiyyəsinin sədri Nuraləm İbrahimov, Ordubad rayonu, Dəstə bələdiyyəsinin sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Tofiq Babayev və Ordubad rayonu Xanağa bələdiyyəsinin sədri Minayə Əlverdiyeva çıxış ediblər.

Konfrans konsert proqramı ilə başa çatıb.

## Ali Məclisin komitə iclasında Nazirlər Kabinetinin hesabatı təqdim edilib



Aprelin 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin iclası keçirilib.

İclasa sədrlik edən Ali Məclisin Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli iclasın gündəliyinə bir məsələnin – Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatının daxil edildiyini deyib.

Gündəlik təsdiq olunduqdan sonra komitə sədri qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 34-cü maddəsinin III hissəsinə və Ali Məclisin Daxili Nizamnaməsinin müvafiq maddəsinə uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti hər il Ali Məclisin yaz sessiyasında Nazirlər Kabinetinin əvvəlki il üzrə fəaliyyəti haqqında hesabat verir. Daxili Nizamnaməyə əsasən Nazirlər Kabinetinin hesabatı Ali Məclisin iclasında baxılmamışdan əvvəl Ali Məclisin Hüquq siyasəti komitəsinə rəy verilməsi üçün təqdim edilib.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aparat rəhbəri Aləm Bağırov və Hüquq şöbəsinin müdiri Gülçin Dünyamalıyev layihə barədə məlumat veriblər.

Məsələ ətrafında aparılan müzakirələrdə komitənin sədri İsmayıl Qəribli, sədr müavini Aidə Cəlilzadə, üzvləri Aidə Allahverdiyeva, Nüsrət Həsənov, Eldar Zeynalov, Qadir İbrahimov, Hacıfəxrəddin Səfərli və Ali Məclis Aparatının Qanunvericilik və hüquq məsələləri şöbəsinin müdiri Cəlil Rüstəmov cinayətkarlığın statistikasının, narkomaniya və alkoqolizmə qarşı maarifləndirmə tədbirlərinin nəticələrinin hesabatda öz əksini tapması, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət və bələdiyyə torpaqlarının ayrılması ilə bağlı prosedur qaydaları, hüquqi aktların ekspertizası ilə əlaqədar verilən rəylərin qənatbəxş olmaması və digər mövzularda öz fikirlərini, qeyd, təklif və suallarını səsləndiriblər. Nazirlər Kabinetinin Aparat rəhbəri Aləm Bağırov və Hüquq şöbəsinin müdiri Gülçin Dünyamalıyev səsləndirilən fikirlərə münasibət bildirib, suallara aydınlıq gətirib, təkliflərin nəzərə alınması üçün qeydiyyatı aparılıb.

Müzakirə olunan məsələ ilə əlaqədar Hüquq siyasəti komitəsinin rəyi oxunub, qəbul olunan qərarla Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatı irad və təkliflər nəzərə alınmaqla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə tövsiyə olunub.

Bununla da iclas öz işini başa çatdırıb.

## Ali Məclisin komitə iclasında hökumətin hesabatı müzakirə olunub



Aprelin 24-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Humanitar siyasət komitəsinin iclası keçirilib.

İclası açan Ali Məclisin Humanitar siyasət komitəsinin sədri Elman Cəfərli müzakirəyə bir məsələnin – Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatının təqdim edildiyini bildirib.

Gündəlik təsdiq olunduqdan sonra komitə sədri Naxçıvan Muxtar Respublikası Konstitusiyasına və Ali Məclisin Daxili Nizamnaməsinə əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin hər il Ali Məclisin yaz sessiyasında əvvəlki il üzrə fəaliyyəti haqqında hesabat verdiyini qeyd edib. Daxili Nizamnaməyə uyğun olaraq Nazirlər Kabinetinin hesabatı Ali Məclisin iclasında baxılmamışdan əvvəl Ali Məclisin Humanitar siyasət komitəsinə rəy verilməsi üçün təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Aparat rəhbəri Aləm Bağırov və Humanitar və sosial məsələlər şöbəsinin müdiri Sevinc Cabbarova layihə barədə məlumat veriblər.

Məsələ ətrafında aparılan müzakirələrdə komitənin sədri Elman Cəfərli, sədr müavini Hüseyn Niftəliyev, üzvləri Ehtimad Məmmədov, Əmir Babayev, Asim Əliyev, Vüsalə Əliyeva, Həbibə Allahverdiyeva, Turan Həsənova və Ali Məclis Aparatının İqtisadi məsələlər şöbəsinin müdiri Nihad Möhbalıyev ilk dəfə olaraq Nazirlər Kabinetinin hesabatının Ali Məclisin komitələrində müzakirəsini yüksək qiymətləndirib, bunu muxtar respublikada aparılan uğurlu sosial-iqtisadi islahatların, eyni zamanda qurumlar arasında idarəetmənin təkmilləşdirilməsinin nəticəsi kimi dəyərləndiriblər. Həmçinin təhsil, səhiyyə və digər sahələr üzrə həyata keçirilən tədbirlərə ayrılan vəsaitlərin, statistik göstəricilərin müqayisəli şəkildə hesabatda öz əksini tapmaması, müvafiq qurumların fəaliyyəti ilə əlaqədar hesabatda qeyd olunan məlumatların təhlil və ümumiləşdirmələrin aparılmaması, QİÇS-lə mübarizə ilə bağlı maarifləndirmə tədbirlərinin gücləndirilməsi, Vətənimizin ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhid olmuş qəhrəmanlarımızın adlarının əbədiləşdirilməsi məqsədilə sinif otaqlarına adlarının verilməsi ilə bağlı vahid qaydanın olub-olmaması, şəkərli diabet xəstələrinin dərman preparatları ilə təminatı və digər mövzularda öz fikirlərini, irad, qeyd, təklif və suallarını səsləndiriblər.

Nazirlər Kabinetinin Aparat rəhbəri Aləm Bağırov, Humanitar və sosial məsələlər şöbəsinin müdiri Sevinc Cabbarova, Təhsil, Səhiyyə və Mədəniyyət nazirliklərinin nümayəndələri səsləndirilən fikirlərə münasibət bildirib, suallara aydınlıq gətirib, təkliflərin nəzərə alınması üçün qeydiyyatı aparılıb.

Müzakirələrin sonunda gündəlikdə duran məsələ ilə əlaqədar Humanitar siyasət komitəsinin rəyi oxunduqdan sonra Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatı irad və təkliflər nəzərə alınmaqla Naxçıvan Muxtar Respublikası Ali Məclisinin müzakirəsinə tövsiyə olunub.

## Ali Məclisin Sosial siyasət komitəsinin iclası keçirilib

Aprelin 25-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sosial siyasət komitəsinin iclası keçirilib.

İclası açan Ali Məclisin Sosial siyasət komitəsinin sədri Yeganə Məmmədova gündəlikdə duran məsələni – Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatını diqqətə çatdırıb.

Gündəlik təsdiq olunduqdan sonra komitə sədri Naxçıvan Muxtar Respublikası Konstitusiyasına və Ali Məclisin Daxili Nizamnaməsinə əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinin hər il Ali Məclisin yaz sessiyasında əvvəlki il üzrə fəaliyyəti haqqında hesabat verdiyini qeyd edib. Daxili Nizamnaməyə uyğun olaraq Nazirlər Kabinetinin hesabatı Ali Məclisin iclasında baxılmamışdan əvvəl Ali Məclisin Sosial siyasət komitəsinə rəy verilməsi üçün təqdim olunub.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının Humanitar və sosial məsələlər şöbəsinin müdiri Sevinc Cabbarova layihə barədə məlumat verib.

Məsələ ətrafında aparılan müzakirələrdə komitənin sədri Yeganə Məmmədova, üzvləri Rizvan Məmmədov, Fərəc Fərəcov, Yazgül Rzayeva, Turan Məmmədli, İsa Məmmədov, Turan Həsənova Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi tərəfindən erkən nikahın qarşısının alınması ilə bağlı dini kəbin kəsilməsinə yol verilməməsi, muxtar respublikanın tarixi abidələrini ziyarət edən turistlərin sayının göstərilməsi, Yaycı kəndində içməli suyun keyfiyyətinin artırılması məqsədilə sutəmizləyici qurğunun quraşdırılması, yol kənarlarında müasirtipli dayanacaqların qoyulması, bəzi yollarda nişanlanma xətlərinin çəkilməməsi, marşrut üzrə hərəkət edən nəqliyyat vasitələrinin müasir və iritutumlu avtomobillərlə əvəz olunması, Ali Məclisin plenar iclaslarında su təminatı ilə bağlı qaldırılan məsələlərin bir çoxunun öz həllini tapmaması, səhiyyə müəssisələrində tenderlərin keçirilməsinin zaman



alması nəticəsində xəstələrin pulsuz dərman preparatları ilə təminatında çətinliklərin yaranması, Nehrəm qəsəbə 3 nömrəli tam orta məktəb üçün tikilən binanın yarımçıq qalması, tikilməsi nəzərdə tutulan uşaq bağçasının isə inşasına başlanılmaması, işsizlikdən sığorta ödənişlərinin alınmasında çətinliklərin olması və digər mövzularda öz fikirlərini, irad, qeyd, təklif və suallarını səsləndiriblər.

Ali Məclis Aparatının İqtisadi məsələlər şöbəsinin müdiri Nihad Möhbalıyev və Humanitar siyasət məsələləri şöbəsinin baş məsləhətçisi Musa Məmmədov əhalinin sosial müdafiəsi ilə bağlı qeyd olunan məlumatlarda bəzi sosial göstəricilərin, müqayisəli statistikanın verilməməsini, icbari tibbi sığorta ilə əlaqədar əvvəlki illərlə müqayisənin aparılmamasını, dezinfeksiya, dezinseksiya işlərinin, yoluxucu viruslara qarşı, yeni doğulanlar haqqında, dövlət tərəfindən pulsuz verilən dərman preparatları ilə bağlı, işlə təmin olunma, pensiya təminatı və təqaüdün təyin olunması ilə əlaqədar statistik məlumatların hesabatda öz əksini tapmadığını diqqətə çatdırıblar.

Nazirlər Kabineti Aparatının Humanitar və sosial məsələlər şöbəsinin müdiri Sevinc Cabbarova, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Aparat rəhbəri Fərid Bağırzadə səsləndirilən fikirlərə münasibət bildirib, suallara aydınlıq gətirib, təkliflərin nəzərə alınması üçün qeydiyyatı aparılıb.

Müzakirələrin sonunda gündəlikdə duran məsələ ilə əlaqədar Sosial siyasət komitəsinin rəyi oxunduqdan sonra Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü ildə fəaliyyəti haqqında hesabatı irad və təkliflər nəzərə alınmaqla Ali Məclisin müzakirəsinə tövsiyə olunub.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Qarış-qarış ZƏFƏR



## Və ya torpaqdan pay olmayır...

Bacılar və qardaşlar, məncə, 2020-ci ilin 27 sentyabrından sonra yaşananları ayrı bir tarix dərsliyi halına salıb yeniyetmə və gənclərimizə tədris etməliyik. Vətən müharibəsinin başlanması, torpaqlarımızın işğaldan azad olunması ilə qazanılan şanlı Zəfər, daha sonra neoimperialist qüvvələrə qarşı siyasət meydanında ortaya qoyduğumuz güc və iradə və sair və ilaxır...

Hər keçən gün ölkənin ictimai-siyasi həyatı ilə bağlı əlamətdar bir tarixə, yeniliyə şahidlik edirik. Yadınızdadır, 2023-cü ilin aprel günləri... Hələ ötən il bu vaxt Azərbaycan Laçın sərhəd-buraxılış məntəqəsində post qurub üçrəngli bayrağımızı əbədi göylərə qaldırmaqla ərazi bütövlüyünü təmin etmişdi. Bütün dünyaya bəyan olunmuşdu ki, 86,6 kvadratkilometrlik ərazidə cənab İlham Əliyevin siyasi iradəsi olmadan daş üstünə daş qoyula bilməz. O vaxt Xankəndidə yaşayan erməniəsilli vətəndaşlarımıza da bu mesaj açıq təlqin olundu ki, yaşadığınız ərazidə Azərbaycanın qanun və qaydaları keçərlidir. Başqasından mədət ummağa dəyməz. Ya Azərbaycan Bayrağı altında digər vətəndaşlarımızla birgə yaşayış, ya da Laçın sərhəd buraxılış məntəqəsi üzünüzə açıqdır. Sonrakı proseslərin nə ilə nəticələndiyini yaxşı bildiyimiz üçün mövzunu uzatmıram.

Gələk 2024-cü ilin aprel ayında yaşananlara. Aprel ayına möhürünü vuracaq iki hadisə: 2025-ci ilin may ayınadək Qarabağda sülhü və təhlükəsizliyi təmin etmək missiyasını öz üzərinə götürən rus hərbi kontingenti Azərbaycan və Rusiya liderlərinin qarşılıqlı razılığı əsasında müddətin bitməsinə 1 il 1 ay qalmış ölkəmizi tərk edir, ardınca Ermənistan may ayının 15-nə kimi Qazaxın işğal altında olan 4 kəndinin Azərbaycana təhvil veriləcəyini açıqlayır. Doğrusu, Azərbaycan Prezidentinin siyasi sürətinə, dinamikasına yetişmək olmur. Yuxarıda qeyd etdiyim ilk faktı şərh edib qurtarmamış cənab İlham Əliyev dünya azərbaycanlılarına daha bir müjdə verdi. Bəli, Azərbaycan sevinc içərisindədir, Qazax bayram ab-havasındadır. Bir güllə belə atılmadan, bir Vətən oğlunun belə burnu qanamadan Qazax mahalının 4 kəndinə geri qayıdırıq. Cənab Əliyevin Vətəndən, torpaqdan pay olmayır məsajıdır, qarış-qarış zəfərdir, addım-addım qələbədir bunun adı. Baş SƏRKƏRDƏnin müharibədən sonra verdiyi siyasi proqnozlar tək-tək özünü doğruldur. Möhtərəm Prezident demişdi ki, Azərbaycan və Ermənistan Cənubi Qafqazın iki qonşu ölkəsi kimi öz məsələlərini özləri həll etmək iqtidarındadır. Bunun üçün Qərbdən və okeanın o tayından qeyri-səmimi şəkildə bizə ağıl verməyə çalışan hansısa müsyö və madamların məsləhətinə ehtiyacımız yoxdur.

Baxın, Yaxın Şərqə diqqətlə baxın, həmçinin Rusiya-Ukrayna cəbhəsinə. Böyük güclərin yaratdığı mənzərə – müharibə, dağıntı, fəlakət, minlərlə uşaq ölümü, ev-eşiyə, qidaya ehtiyacı olan yüz minlərlə insan, bu da Cənubi Qafqazda sülh və əmin-amanlıq içində Azərbaycan Prezidentinin siyasi qətiyyəti ilə bir nəfərin belə ruhu incimədən geri qaytarılan Qazax mahalının 4 kəndi... Siz yox, nümunə bizik, nümunə cənab İlham Əliyevdir, nümunə AZƏRBAYCANDIR.

İndi həmin o 4 kənddə uzun illərdir, qeyri-qanuni məskunlaşan ermənilər guya öz ələmlərində nümayiş təşkil edir, yol bağlayır, bu qərara etiraz edirlər. Amma unudurlar ki, ədalət topaldır, yavaş yeriyir, amma gec-tez ünvana çatır. Sonda bədnam qonşularımıza kiçik bir tövsiyə: ekran başına keçin və cənab İlham Əliyevin siyasi addımlarını diqqətlə izləyin!

**Muxtar RZAZADƏ**

## Azərbaycanın beynəlxalq nüfuzunun, diplomatik uğurunun daha bir göstəricisi

Aprelin 23-də ADA Universitetində "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda keçirilən beynəlxalq forum ölkəmizin növbəti diplomatik uğuru kimi tarixə yazıldı. 30 ölkədən 64 iştirakçının qatıldığı forum dünya mediasının da diqqət mərkəzində idi.

Azərbaycanın yekdilliklə BMT-nin İqlim Dəyişikliyi Konfransına ev sahibliyi edəcək ölkə kimi seçilməsi onun qlobal miqyasda oynadığı rolun, güclü diplomatiyanın daha bir göstəricisi idi. Ölkəmizin BMT Təhlükəsizlik Şurası, Qoşulmama Hərəkatı və Türk Dövlətləri Təşkilatı kimi beynəlxalq təsisatlara uğurlu sədrliyi, qazanılmış böyük təcrübə məhz COP29 kimi mötəbər tədbirin ölkəmizdə təşkilinə gətirib çıxarır.

Beynəlxalq forum bir daha göstərdi ki, COP29-un ölkəmizdə təşkili dünyada baş verən iqlim dəyişikliyi fonunda dünyanın gələcək gündəliyinin müəyyənləşdirilməsi baxımından faydalı olacaq. Forumda regional təhlükəsizlik məsələləri, enerji keçidi və yaşıl artımla bağlı, enerji potensialı, "yaşıl enerji" dəhlizlərinin gələcəyi məsələləri ilə bağlı ölkəmizin baxışı təqdim olundu, qlobal qarşıdurma dönəmində regional inkişaf hadisələrinə aydınlıq gətirildi. Bütün bunlarla bağlı dövlət başçısının prinsipial, dəqiq, sərrast cavabları bir daha Azərbaycanın gücünü, qlobal siyasət arenasındakı nüfuzunu ortaya qoydu. O cümlədən erməni işğalından sonra ekoloji terrorun nəticələrinin, o cümlədən mina problemi və fəsadlarının aradan qaldırılması məsələsinə də bir daha dünyanın diqqətini çəkdi. Həmçinin forumda ölkəmizin son vaxtlarda ard-arda əldə etdiyi diplomatik uğurlar fonunda (Qazax rayonunun kəndlərinin sülh yolu ilə qaytarılması kimi) birgə əməkdaşlıq əsasında regionda sülh və təhlükəsizliyin inkişafına töhfə verməyin vacibliyi ön plana çəkildi. Ölkə başçısının düşünülmüş siyasəti, strategiyası, diplomatiyası sayəsində Qarabağda əldə edilən böyük Zəfərdən sonra Azərbaycanın yaratdığı yeni reallıq, həyata keçirilən layihələr və digər başqa mövzular müzakirə edildi.

Forumda COP29-un ölkəmizdə keçirilməsinin Ermənistan və Azərbaycan arasında münaqişənin həll olunmasının və sülh danışıqlarında irəliləyişin nəticəsi olduğunu, Cənubi Qafqazda təhlükəsizlik tədbirlərinin gücləndirilməsi ilə nəticələnəcəyini qeyd edən dövlətimizin başçısı COP29-un Cənubi Qafqazda gələcək əməkdaşlıq üçün fürsət olduğunu qeyd etdi. Forumda Azərbaycanın neft və qaz ölkəsi kimi dünyada oynadığı rol, bu istiqamətdə həyata keçirilən əməliyyatların beynəlxalq ətraf mühitin mühafizəsi standartlarına əsasən aparıldığı vurğulandı.

COP29-a sədrlik veriləndən dərhal sonra ölkəmizə qarşı müxtəlif QHT-lər və media tərəfindən hücum edənlərə ölkə başçısı forum vasitəsilə cavab verərək yaradılan resurslardan yalnızca ölkənin inkişafı, yoxsulluğun azaldılması, sərvətin ədalətli paylanılması, infrastruktur, "yaşıl enerji" üçün istifadə edildiyini, bu gün sabit neft və artan qaz hasilatına malik ölkəmizin "yaşıl enerji" layihələrini inkişaf etdirdiyini diqqətə çatdırdı.

Ölkə başçısı ixracla bağlı gələcək hədəflərdən də danışaraq qeyd etdi ki, iki il bundan əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında energetika sahəsində strateji tərəfdaşlıq üzrə bəyannamə imzalanıb. Bu sənədə əsasən Avropaya qaz təchizatımız 2021-ci ildə 8 milyard kubmetrdən 2027-ci ildə 20 milyard kubmetrə qədər artmalıdır. Bu il Avropaya qaz təchizatı, təqribən, 12 milyard kubmetr olacaq. Bu, 2021-ci illə müqayisədə 4 milyard kubmetr çoxdur. Həmçinin dövlətimizin başçısı dedi: ***"Bütün bu məsələlər geosiyasət və regional əməkdaşlıq ilə sıx əlaqədardır. Birincisi, Azərbaycan həmişə enerji layihələrini siyasətdən ayırmışdır. Lakin, eyni zamanda onları yalnız müsbət mənada inteqrasiya etmişdir. Bizim bütün enerji layihələrimiz əməkdaşlığa aparır".***

Prezident cənab İlham Əliyev Forumda Zəngəzur dəhlizi ilə bağlı suallara da aydınlıq gətirdi. Qeyd edildi ki, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatda "Zəngəzur dəhlizi" sözü qeyd olunmayıb, lakin deyilib ki, Azərbaycanın şərq hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsi olmalıdır və Rusiya sərhəd təhlükəsizliyi qüvvələri nəzarəti təmin etməlidir. Ermənistan 3 ildən artıqdır ki, bu müddəanı faktiki olaraq pozur və Naxçıvan Muxtar Respublikası ilə quru yolu əlaqəsini qurmaq imkanını bloklayır. ***"Azərbaycanın əsas hissəsindən Naxçıvan Muxtar Respublikasına Ermənistan ərazisi vasitəsilə quru yolu beynəlxalq nəzarət və təhlükəsizlik mexanizmi ilə təmin edilməlidir"***, – deyən ölkə başçısı əgər üçtərəfli Bəyanata hörmət edilməzsə, yenə də uduzan tərəfin Ermənistan olacağını vurğuladı.

Son vaxtlarda Ermənistanda baş verən hadisələrə, milli təhlükəsizliklə bağlı məsələyə də toxunan dövlət başçısı Fransanın, Hindistanın və Yunanıstanın Ermənistanı bizə qarşı silahlandırdığını və bunu açıq, nümayişkaranə şəkildə etdiyini qeyd edərək Ermənistan hökumətinə, indi Ermənistanın qayğısına qalmaq istəyənlərə açıq şəkildə cavab olaraq bildirdi ki, bizə qarşı ciddi təhlükə görsək, ciddi tədbirlər görməli olacağıq. İkinci Qarabağ müharibəsində cəmi 44 gün ərzində əldə edilmiş Zəfər, separatizmə son qoyulan bir neçə saatlıq antiterror əməliyyatı ilə onlara gücümüzü göstərmişik və Ermənistanın bizə qarşı heç bir şansı yoxdur.

Ölkə başçısı əldə edilən uğurların sirrinin məhz ədalətli və düzgün olmaqdan keçdiyini, Azərbaycanın potensial təhlükə yarada biləcək heç bir təşəbbüsə qoşulmadığını və İranla, Rusiya ilə, Gürcüstanla, Avropa ilə, qardaş Türkiyə ilə münasibətlərdə həmişə ədalətli olduğunu bildirərək dedi: ***"Düşünürəm ki, əsas üsul və əsas həll yolu ədalətli və düzgün olmaqdır. Qonşularımızla yaxşı, bəzən də gözəl münasibətlər qura bilmişik. Uğurun əsasını bunda görürəm. Çünki onlar bizə etibar edə bilərlər və bilirlər ki, bizdən heç bir sürpriz olmayacaq".*** Yekun nəticədə forum ölkəmizin qarşıdakı məqsəd və planlarını ortaya qoydu, qlobal iqlim dəyişikliyi fonunda bütün dünya üçün vacib mesajlarla yadda qaldı.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**



Əsrə bərabər 20 il

# Çıraq işığından “yaşıl enerji”yə...

Azərbaycan Prezidenti cənab İlham Əliyevin ölkəmizə rəhbərliyinin 20 ili o qədər zəngin olub ki, əbəs yerə bu illərə “əsrə bərabər illər” demirlər. Heydər Əliyev ideyalarının uğurla davam etdirildiyi bu illər tarix üçün qısa bir dövr olsa da, Azərbaycanı böyük inkişaf yoluna çıxarıb. Və bu inkişafdan ölkəmizin ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasına da böyük pay düşür. Bir zamanlar taleyin ümidinə buraxılmış qədim diyar ötən əsrin sonlarında dahi Heydər Əliyevin çıraq işığında qəbul etdiyi qərarlar nəticəsində mövcudluğunu qoruyub saxlayıbsa, cənab İlham Əliyevin sayəsində özünün yeni inkişaf mərhələsinə qədəm qoyub.

İstənilən ölkənin və ya regionun inkişafı enerji təhlükəsizliyinin təmin olunmasından birbaşa asılıdır. Təsadüfi deyil ki, XXI əsrdə enerji təhlükəsizliyi qida təhlükəsizliyinə bərabər tutulur, hətta birincinin olmaması ikincinin də təhlükəsizliyini təmin etmir. Ötən əsrin sonlarından nəqliyyat blokadasına salınan muxtar respublikanın həm də energetika problemləri ilə sınağa çəkilməsi yaxın tarixin yaddaşından indiyədək silinməyən kədərli xatirələrdəndir. Ümummilli Lider Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə ən çox diqqət göstərdiyi məsələlərdən biri də Naxçıvanı enerji böhranından çıxarmaq idi. İlkin olaraq qonşu ölkələrdən idxal edilən enerji hesabına muxtar respublikanın elektrik enerjisi təminatında bir qədər müsbətə doğru dəyişiklik olsa da, lakin bu, azlıq edirdi. Ölkə paytaxtından neft, dizel yanacağının gəlməməsi elektrik enerjisinə olan tələbatı daha da artırırdı. İlk dəfə 1992-ci ildə, görkəmli dövlət xadimi Naxçıvanda Ali Məclisin Sədri işlədiyi dövrdə Türkiyənin ovaxtkı Baş naziri Süleyman Dəmirəl tərəfindən Naxçıvana yeddi ədəd qaz-turbin elektrik qurğusu hədiyyə edilmiş, dizel yanacağı ilə işləyən və 60 meqavat gücündə olan həmin qurğular “Babək” elektrik yarımstansiyasında quraşdırılmışdır. Beləliklə, əvvəllər 6-8 saatdan bir iki saat, sonra 4 saatdan bir iki saat, daha sonra isə 2 saatdan bir iki saat olmaqla əhaliyə elektrik enerjisi verilirdi.

Sonrakı dövrlərdə əhalisi artan, iqtisadiyyatı inkişaf edən muxtar respublikamızda enerji sisteminin dayanıqlığını, enerji təhlükəsizliyini təmin etmək məqsədilə yeni generasiya gücləri tikilib istifadəyə verilmişdir. Bu istiqamətdə həyata keçirilən tədbirlərin mühüm mərhələsindən biri də 2006-cı ilin dekabr ayında muxtar respublikada gücü 50 meqavat olan Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasının təbii qazla işləmə rejiminə keçməsinin, 4.5 meqavat Heydər Əliyev Su Anbarı üzərindəki su elektrik stansiyasının və 87 meqavat Naxçıvan Modul Elektrik Stansiyasının istismara verilməsi idi. Belə ki, “Azərbaycan Respublikasında elektrik enerjisi təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 2 may tarixli Sərəncamına əsasən Naxçıvan Qaz-Turbin Elektrik Stansiyasının enerji turbinləri müqavilələrə və təsdiq olunmuş qrafikə uyğun olaraq dizel yanacağından təbii qaz ilə işləmə rejiminə keçirilmiş, stansiya və yarımstansiyanın bütün əsas avadanlıqları dəyişdirilmiş, yenidənqurma işləri aparılmışdır. Muxtar respublikanın enerji təhlükəsizliyində və elektrik enerjisi ilə təminatında ən önəmli yerə sahib, gücü 87 meqavat olan Naxçıvan Modul Elektrik Stansiyası və Heydər Əliyev Su Anbarı üzərindəki su elektrik stansiyası 2006-cı ilin dekabrın 20-də dövlət başçısının iştirakı ilə istismara verilmişdir.

Muxtar respublikanın enerji təhlükəsizliyini daim diqqət mərkəzində saxlayan Azərbaycan Prezidenti Naxçıvana səfərləri çərçivəsində yeni elektrik stansiyalarının istifadəyə verilməsində (2010-cu ildə Biləv Su Elektrik, 2014-cü ildə “Arpaçay-1” və “Arpaçay-2” Su Elektrik, 2015-ci ildə Naxçıvan Günəş Elektrik stansiyalarının açılışında, 2015-ci ildə Ordubad Su Elektrik Stansiyasının təməlqoyma mərasimində və sair) iştirak etmiş, muxtar respublikanın enerji potensialının artırılması üçün müvafiq tapşırıqlar vermişdir. Ötən dövrdə bu istiqamətdə görülən işlərin nəticəsidir ki, hazırda muxtar respublikada elektrik enerjisinin ümumi generasiya gücü 244,8 meqavat təşkil edən 2 istilik elektrik stansiyası və 5 su elektrik stansiyası, 3 günəş elektrik stansiyası, 1 külək-günəş hibrid elektrik stansiyası, 1 külək elektrik stansiyası var və bu stansiyalardan 11-i müstəqillik illərində istismara verilib.

Sevindirici haldır ki, bu gün artıq Naxçıvan Muxtar Respublikası ölkəmizin “yaşıl enerji” istehsalında mühüm bölgələrindən biri kimi çıxış edir. Hətta dövlət başçısı sonuncu dəfə Naxçıvanda Türkiyə Respublikasının Prezidenti ilə görüşündə də bu məsələyə diqqət çəkərək bildirmişdir: ***“…Naxçıvanın qazı, nefti olmasa da, Günəşi var və Naxçıvanda günəş elektrik stansiyalarının inşası ilə bağlı bizim böyük planlarımız var. Bu planlar gerçəkləşərsə, Naxçıvan “yaşıl enerji” zonasına çevrilə bilər. Çünki burada həm günəş, həm külək, eyni zamanda su elektrik stansiyalarının inşası üçün böyük potensial var və gələcəkdə Naxçıvandan Türkiyəyə ən azı 1000 meqavat həcmində “yaşıl enerji” ixracı da mümkün olacaqdır”.***

Təsadüfi deyil ki, son illərdə muxtar respublikada haqqında bəhs olunan enerji mənbələrindən təmiz enerji istehsalı məqsədilə bir sıra işlər görülüb. Xüsusilə yeni günəş və külək elektrik stansiyalarının tikilib istifadəyə verilməsi muxtar respublikada istehsal edilən ümumi enerjidə bərpa olunan enerjinin payını artırıb. Məsələn, 2023-cü ildə muxtar respublikanın elektrik stansiyalarında istehsal olunan elektrik enerjisinin 19,89 faizi su elektrik stansiyalarında, 12,75 faizi günəş elektrik stansiyalarında istehsal olunub ki, bu da stansiyalar üzrə sistemə ötürülən ümumi enerjinin 32,64 faizini təşkil edir. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin məlumatına görə, havaların yağıntılı və Günəşli günlərin çox olması səbəbindən, hətta bu ilin aprel ayının bəzi günlərində muxtar respublikanın enerji təminatı tamamilə alternativ və bərpa olunan enerji mənbələri hesabına ödənilib.

Bunu da vurğulamaq lazımdır ki, “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda qəbul edilmiş 11 prioritet istiqamətdən biri də elektrik enerjisi istehsalının və ixracının artırılmasıdır. Təbii ki, burada da əsas istiqamət alternativ və bərpa olunan enerji istehsalı və ixracı üzərinə yönəlib. Beləliklə, bir zamanlar çıraq işığı ilə aydınlanan Naxçıvan yaxın gələcəkdə “yaşıl enerji” ixracındakı hədəflərinə inamla addımlayır.

# Naxçıvana quru yolu təmin olunmalıdır, əks təqdirdə…

Azərbaycan Prezidenti “COP29 və Azərbaycan üçün Yaşıl Baxış” beynəlxalq forumunda çıxışı zamanı bir sıra maraqlı məqamlara toxundu, indiyədək ictimaiyyətə məlum olmayan bir çox məsələlərə açıqlıq gətirdi. Bu forum “COP29” mövzusunun qlobal çağırışlara operativ yanaşma xüsusiyyətləri ilə bərabər, Avropa-Cənubi Qafqaz, eyni zamanda Azərbaycan-Ermənistan münasibətlərinin hazırkı vəziyyətini qiymətləndirmək baxımından da əhəmiyyətli idi. Xüsusilə dövlət başçısının son günlərdə regionda gedən bir sıra müsbətyönlü proseslərə izahedici cavablar verməsi təkcə daxili deyil, qlobal auditoriya üçün də maraqlı idi.

Dövlət başçısı çıxışında Rusiya sülhməramlı kontingentinin vaxtından əvvəl Azərbaycandan çıxarılması, Azərbaycan-Rusiya, Azərbaycan-Avropa münasibətlərinin hazırkı vəziyyətindən bəhs etdi, Ermənistanla Azərbaycan arasında heç bir tərəf olmadan ilkin razılaşmaların və bunun da nəticəsində məlum 4 kəndin Azərbaycana qaytarılmasını ümumi prosesə töhfə kimi qiymətləndirdi. Eyni zamanda Ermənistan tərəfindən gözləntilərini də açıq mətnlə bir daha hər kəsin diqqətinə çatdırdı. Xüsusilə Zəngəzur dəhlizi məsələsinə toxunaraq üç ölkə arasında imzalanmış bəyanatın prinsiplərini bir daha xatırlatdı. Sitat: ***“10 noyabr Zəngəzur Dəhlizinə gəldikdə, qeyd etdiyiniz kimi, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatda bu məsələ aydın şəkildə əks olunur. Bəli, “Zəngəzur dəhlizi” sözü orada qeyd olunmayıb. Lakin yazılıb ki, Azərbaycanın şərq hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında yol əlaqəsi olmalıdır və Rusiyanın sərhəd qüvvələri nəzarəti təmin etməlidir. Bu, Prezident Putin, Baş nazir Paşinyan və mənim tərəfimdən imzalanıb. İndi isə üç ildən çoxdur ki, Ermənistan bu müddəanı, əslində, pozur”.*** Erməni tərəfinin məqsədini açıqlayan dövlət başçısı bildirdi: ***“İndi isə onlar, belə demək olarsa, həmin müddəanı aradan çıxarmaq istəyirlər. Lakin bu, mümkün deyil. Onlar Naxçıvan Muxtar Respublikası ilə yol əlaqəsini qurmaq imkanını bloklayır. Bu cür münasibət, təbii ki, çox məyus edir”.***

Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasındakı nəqliyyat bağlantısını nəzərdə tutan Zəngəzur dəhlizi postmüharibə dövrünün ən çox müzakirə edilən mövzularından olub. Amma məsələ burasındadır ki, hər zaman bu mövzu açılanda Ermənistan tərəfi məntiqsiz olaraq bunu özünün suverenliyinə təhdid kimi görüb. Hətta bir çox hallarda daha da irəliyə gedərək Azərbaycanın qədim Zəngəzur torpaqlarını işğal etməsini qarşıya məqsəd qoyduğunu bildirib. Amma hamımıza aydındır ki, dövlət başçısının də həmin forumda bildirdiyi kimi, bizim Ermənistanın beynəlxalq hüquq tərəfindən tanınan torpaqlarında gözümüz yoxdur. Biz yalnız bizə lazım olanı alırıq. Ermənistan tərəfi isə 3 ildir, bütün dünyaya haray-həşir salaraq bu işdə Azərbaycanı işğalçı kimi təqdim etməyə çalışır. Həqiqət naminə deyək ki, Ermənistana bu işdə dəstək verənlər də az deyil. Qarşı tərəf isə çox vaxt bu illüziyalara qapılıb, guya buna heç vaxt razı olmayacaqlarını bildirirlər. Ancaq ortada bir sadə həqiqət də var: Zəngəzur dəhlizi yeni anlayış deyil. Dəhliz və ya yol, fərq etməz, bu marşrut sovetlər birliyi dövründə də mövcud olub və Ermənistan da bu yoldan kifayət qədər yararlanıb. Və üçtərəfli anlaşmaya görə, yolun bərpası, sadəcə, kommunikasiyaların açılması məqsədi daşıyır. Xüsusilə Azərbaycan ərazilərindən ayrı düşmüş Naxçıvan Muxtar Respublikası ilə əvvəllər olduğu kimi birbaşa əlaqə yaradılır. Digər tərəfdən, Ermənistan tərəfi bu yoldan istifadə edərək tamamilə nəqliyyat blokadasından çıxır: Rusiya, İran və Türkiyə ilə birbaşa nəqliyyat əlaqəsi yarada bilir, eyni zamanda sovetlər birliyi dövründən fərqli olaraq həm Qərb, həm Şərq marşrutlarına çıxış əldə edir. Paralel olaraq da Azərbaycan vasitəsilə Şimal-Cənub dəhlizinə qoşulmaq imkanı qazanır. Yəni normal məntiqlə Ermənistan bunda daha çox maraqlı olmalıdır.

Buna görə Prezident forumdakı çıxışında bir daha bildirdi ki, Azərbaycanın əsas hissəsindən Naxçıvan Muxtar Respublikasına Ermənistan ərazisi vasitəsilə quru yolu beynəlxalq nəzarət və təhlükəsizlik mexanizmi ilə təmin edilməlidir. Ardınca da əlavə etdi: ***“Əgər onlar bəzi səbəblərdən indi Rusiya sərhəd təhlükəsizlik qüvvələrinin olmağını istəmirlərsə, onlar bunu deməlidirlər. Lakin bir daha deyirəm, onlar bunu özləri imzalayıblar və öz imzalarına hörmət etməlidirlər. Beləliklə, aydındır ki, onlar tranzit ölkə olmaq imkanını itirəcəklər. Onlar heç vaxt tranzit ölkə olmayıblar, mən müstəqil ölkə kimi nəzərdə tuturam və heç vaxt olmayacaqlar. Çünki sülh qovşağı ilə bağlı bütün bu fərziyyələr Azərbaycan olmadan qətiyyən real deyil. Əgər düşünürlər ki, kimsə gəlib İrandan Ermənistana və Gürcüstana dəmir yolu inşa edəcək, onlar elə birini tapmalıdırlar ki, kim bilir, bəlkə də, hansısa səbəbə görə 5-7 milyard ABŞ dolları xərcləsin. Halbuki İran ilə Azərbaycan arasında quru əlaqəsi var, Şimal-Cənub Nəqliyyat Dəhlizi tikilir və Azərbaycanla Gürcüstan arasında dəmir yolu əlaqəsi mövcuddur. Hər halda gələcəklərini necə planlaşdırmaq onların öz işidir”.***

Bəli, gələcəklərini planlaşdırmaq onların öz işidir. Delimitasiya üzrə praktiki işlərin başlamasından sonra sırada kommunikasiyaların açılması var. Və Azərbaycan Naxçıvan Muxtar Respublikası ilə quru əlaqəsi yaradılması üçün dəhliz məntiqini gündəlikdən çıxarmayıb. Məncə, ərazilərinin 80 faizi Azərbaycan və Türkiyə ilə sərhəd olan Ermənistan artıq öz gələcəyi naminə qərar verməlidir. Çünki gələcək çox zaman gəlmir, onu gətirirlər…

**Səbuhi HƏSƏNOV**



# Gözlərə nur, qəlblərə mərhəmət bəxş edən Böyük Alim

Görkəmli oftalmoloq-alim Zərifə xanım Əliyevanın gözlərini işıqlı dünyaya açmasından 101 il ötür. Kim bilir, bəlkə də, o, gözlərini dünyaya elə gələcəkdə yüzlərlə, minlərlə insanın gözləri dünya işığına həsrət qalmasın deyə açmışdı. Adı VƏTƏNİNİN tarixinə qızıl hərflərlə yazılmış 3 dahi insanın – görkəmli alim və dövlət xadimi Əziz Əliyevin qızı, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ömür-gün yoldaşı və müstəqil Azərbaycana Qələbə qazandıran Prezident cənab İlham Əliyevin anası olmaq hər bir qadına nəsib olmayan böyük xoşbəxtlikdir.

Akademik Zərifə xanım Əliyevanın həyat fəlsəfəsi, mənəvi dünyası, oftalmologiya elminin inkişafındakı xidmətləri o qədər zəngin və çoxcəhətlidir ki, bu barədə saatlarla danışmaq, kitablar yazmaq olar. Zərifə xanım fitri istedada malik novator alim, keçdiyi şərəfli həyat yolu hər bir Azərbaycan vətəndaşı, hər bir alim və həkim üçün mənəviyyat dərsi, kamillik və müdriklik məktəbidir. Zərifə xanım Əliyevanın zəngin elmi irsi, oftalmologiyanın müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, qazandığı nailiyyətlər, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifəsidir.

1923-cü il aprelin 28-də Şahtaxtı kəndində, görkəmli alim və siyasi xadim Əziz Əliyevin ailəsində dünyaya göz açan Zərifə xanım Əliyevanın həyatı özünü Azərbaycan mədəniyyətinin, musiqisinin, elminin inkişafına həsr edən böyük söz və sənət adamları – Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Mirəsədulla Mirqasımov və başqa görkəmli şəxsiyyətlərlə ailəvi və mənəvi yaxınlıq telləri ilə sıx bağlı olan bir mühitdə keçmişdir. Zərifə xanımın cəmiyyət üçün layiqli insan kimi yetişməsində, peşə seçiminin düzgün müəyyənləşməsində böyüyüb boya-başa çatdığı ziyalı mühitinin təsiri çox böyük idi.

Zərifə xanım 1942-ci ildə Bakı şəhərində orta məktəbi əla qiymətlərlə bitirərək Azərbaycan Dövlət Tibb İnstitutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuş, 1947-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunu bitirdikdən sonra Oftalmoloq ixtisasını seçmişdi. Sonra Moskvaya getmiş və orada Ümumittifaq Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda məşhur alimlərin iş təcrübəsi ilə tanış olmuş, praktiki vərdişlərə yiyələnmiş, Oftalmoloq ixtisası üzrə mütəxəssis kimi təkmilləşmiş, iki ildən sonra Vətənə qayıtmışdır. 1949-cu ildən etibarən Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda elmi işçi vəzifəsində çalışmağa başlamışdır. Bununla da onun elmi axtarışlarının, gələcək müvəffəqiyyətlərinin təməli qoyulmuşdur. O, fəaliyyət göstərdiyi Göz Xəstəlikləri İnstitutunun aspiranturasına daxil olmuş, elmi axtarışları dövründə Vətənə, xalqa xeyir verə biləcək ən çətin sahələrdə əzm və iradə ilə çalışmışdır.

Ötən əsrin ortalarında Azərbaycanda traxoma xəstəliyi ocaqları genişlənir, ən çox uşaq müəssisələrini, məktəbləri əhatə edirdi. 1948-ci ildə Naxçıvan Muxtar Respublikasında 7 min nəfər traxomaya yoluxmuşdu. Onlardan 2 mindən çoxu uşaqlar idi. Yaşlıları, o cümlədən uşaqları görmə qabiliyyətinin itirilməsi kimi əzablı dövr gözləyirdi. Belə bir acınacaqlı vəziyyət tək Naxçıvan Muxtar Respublikasında yox, bütün Azərbaycanda ciddi həyəcan siqnalının çalınmasına əsas yaratmışdı. Moskva Mərkəzi Həkimləri Təkmilləşdirmə İnstitutunda təhsilini başa vuran gənc həkim Zərifə xanım Əliyeva 1949-cu ildə Naxçıvanda traxomaya qarşı mübarizəyə həsr edilmiş səyyar seminarlarda iştirak etmiş, bu sahədə qazandığı elmi-praktiki nailiyyətlərin tətbiqinə nail olmuşdu. Sonra isə tədqiqatlarını ümumiləşdirərək 1960-cı ildə “Traxomanın digər terapiya üsulları ilə birlikdə sintomitsinlə müalicəsi” mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdi. Həmin illərdə Oftalmologiya Elmi-Tədqiqat İnstitutunda böyük elmi işçi vəzifəsində çalışan Zərifə xanım 1967-ci ildə Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına dosent vəzifəsinə dəvət olunmuşdur.

Zərifə xanım Əliyeva “Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti” mövzusunda yazdığı dissertasiya işini dünyanın ən nüfuzlu oftalmologiya mərkəzlərindən birində – Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda müdafiə etmişdi. Alim-oftalmoloqların yüksək qiymətini almış dissertasiya işi oftalmologiyanın bu sahəsində ozamankı sovetlər birliyi məkanında ilk işlərdən idi. 1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru elmi dərəcəsi verilmiş və o, Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Oftalmologiya kafedrasının professoru seçilmişdir. Çətinliklərdən qorxmayan, hər zaman ən mürəkkəb problemlərin həllinə cəhd göstərən görkəmli alim tədqiqatlarını rahat kabinetlərdə aparmırdı. O, Azərbaycanın rayonlarını kəndbəkənd gəzir, insanları maarifləndirirdi. O vaxtlar Zərifə xanım Əliyevaya dünya şöhrəti gətirən görmə orqanının fiziologiyası və peşə patologiyası laboratoriyası Elmi-Tədqiqat İnstitutunda yox, məhz istehsal müəssisəsində – Bakı Məişət Kondisionerləri Zavodunda yaradılmışdı. 1981-ci ildə ölkəmizin tibb elmi, səhiyyə sistemi tarixində son dərəcə mühüm bir hadisə baş vermişdir. Moskvadan alınan xəbərdə qeyd edilirdi ki, Azərbaycan alimi Zərifə Əziz qızı Əliyeva görmə orqanının peşə patologiyası sahəsində apardığı silsilə elmi-tədqiqat işlərinin dəyərli nəticələrinə görə SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür.

Akademik Zərifə xanım Əliyeva 160-dan çox elmi əsərin, 10 monoqrafiyanın, 12 səmərələşdirici təklifin, dərs vəsaitlərinin müəllifidir. Görkəmli alim gənc nəslin təlim-tərbiyəsində, yüksək səviyyəli həkim-oftalmoloqların, professional elmi kadrların yetişdirilməsində də böyük xidmətlər göstərmişdir. O, onlarla elmlər doktorunun və elmlər namizədinin rəhbəri olmuş və böyük bir elmi məktəb yaratmışdır. Akademik Zərifə xanım Əliyeva oftalmologiya elmində əldə etdiyi nailiyyətlərə, xalqımızın sağlamlığı keşiyində dayanan çoxsaylı həkim-oftalmoloqların yetişdirilməsində əvəzsiz xidmətlərə görə “Azərbaycanın Əməkdar elm xadimi” fəxri adına layiq görülmüşdür.

Zərifə xanımın elmi fəaliyyətini yüksək qiymətləndirən Ulu Öndər Heydər Əliyev demişdir: ***“Zərifə xanımın tibb elmi sahəsində xidmətlərindən biri də göz müalicəsi, tədqiqatı idi. Mənə belə gəlir ki, onun iki dəyərli irsi vardır. Birincisi, Azərbaycanda ilk dəfə deontologiyanı bir elm kimi meydana atıbdır. İkincisi, Zərifə xanım çalışıb ki, bizim gələcək nəsilləri irsi xəstəlikdən xilas etsin, sağlamlaşdırsın”.***

Özünün zəngin tibb təcrübəsinə və həyat müdrikliyinə əsaslanan Zərifə xanım Əliyeva həkimin xəstə ilə necə davranmağına dair tövsiyələr verirdi. Bu münasibətlərdə həkimin “sözlə” müalicə edə bilmək bacarığını ön plana çəkirdi. Zərifə xanım haqlı olaraq belə hesab edirdi ki, həkimin peşə mövqeyi onun xəstəyə münasibətini müəyyənləşdirən başlıca amildir: *“Yalnız o şəxs əsl həkimdir ki, xəstənin ağrılarını məhz özünün ağrıları hesab edir. Belə bir həkim üçün hər dəfə xəstəni qəbul etmək, hər dəfə xəstəliyə düçar olmuş insanla söhbət etmək həm xəstə qarşısında, həm də cəmiyyət qarşısında, ən başlıcası isə öz vicdanı qarşısında əxlaqi məsuliyyət deməkdir”.*

Onu tanımaq üçün ən gözəl xatirə ona bu dünyada ən sadiq insanın – Ümummilli Lider Heydər Əliyevin xatirələri ola bilər. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev deyirdi: ***“Zərifə xanım çox böyük alim olub. Mən hələ onunla həyat quranda o artıq elm yolunda idi, elmlə məşğul idi. Onun elmi fəaliyyəti məlumdur. O, çox istedadlı, çox xeyirxah, çox sadə insan idi. Mən bu barədə çox danışa bilərəm, ailəmin yaşaması, bu günlərə çatması, övladlarımın tərbiyəsi üçün və həyatımda onun əvəzsiz rolu üçün mən bu gün Zərifə xanımın məzarı qarşısında baş əyirəm”.***

## Prezident İlham ƏLİYEV:

***“ Onun bütün fəaliyyəti, gördüyü bütün işlər insan amilinə dayanırdı. Çünki o həm peşəkar həkim, eyni zamanda çox xeyirxah insan idi. Böyük Lider, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı olan Zərifə xanım bütün işlərdə ona dayaq olur, onu dəstəkləyirdi. Hər bir insan üçün valideynləri əziz və müqəddəsdir. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur. ”***




Zərifə xanım əsl ana, vəfalı ömür-gün yoldaşı, ailəsinə qəlbdən bağlı olan insan idi. Ailə əsrlər boyu Azərbaycanda böyük mənəvi dayaq rolunu oynamışdır. Dəyanətli şəxsiyyət və dərin zəka sahibi olan Zərifə xanım Ümummilli Lider Heydər Əliyevin ömür-gün yoldaşı kimi bu çətin, lakin şərəfli missiyanı da layiqincə yerinə yetirən, Ulu Öndərə etibarlı mənəvi dayaq olan Şəxsiyyət və Ana idi. Bir-birini heyrətamiz şəkildə tamamlayan bu iki parlaq şəxsiyyətin ailə həyatı müasir Azərbaycan cəmiyyəti üçün bir nümunə, milli dəyərlərimizə sədaqətin nadir örnəyidir. Akademik Zərifə xanım Əliyeva Azərbaycana Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, dünya siyasətində öz nüfuzu və yeri olan İlham Əliyev kimi Prezident bəxş edən Ana kimi də unudulmazdır.

Prezident cənab İlham Əliyev demişdir: ***“Onun bütün fəaliyyəti, gördüyü bütün işlər insan amilinə dayanırdı. Çünki o həm peşəkar həkim, eyni zamanda çox xeyirxah insan idi. Böyük Lider, Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı olan Zərifə xanım bütün işlərdə ona dayaq olur, onu dəstəkləyirdi. Hər bir insan üçün valideynləri əziz və müqəddəsdir. Mən çox xoşbəxtəm ki, Zərifə xanım kimi anam olmuşdur”.***

Vətənini, xalqını, bütün insanları böyük bir məhəbbətlə sevən, sənətinin vurğunu olan bu böyük insanın həyatının mənasını təşkil edən nə varsa: elmi, gözəl ailəsi, səmimiyyəti, xeyirxahlığı – hamısı onun nuruna qərq olmuşdu. Ümummilli Lider Heydər Əliyev kimi böyük şəxsiyyətin, dahi bir insanın ömür-gün yoldaşı olmağın özü də həyatda böyük məsuliyyətdir. Zərifə xanım Əliyeva hər iki işi uğurla birləşdirməyi bacararaq həm ailəsində, həm də peşəsində nümunə göstərirdi. Ulu Öndərin dediyi kimi: ***“Ömür yoldaşım kimi, həyatımda keçdiyim yolda mənə həmişə dayaq, arxa olduğuna görə, ailə həyatımı çox xoşbəxt etdiyinə görə Zərifə xanım mənim üçün çox əzizdir. O, çox istedadlı, çox sadə insan idi. Onun xatirəsi bizim qəlbimizdə, bizim ailənin bütün gələcək davamçılarının qəlbində əbədi yaşayacaqdır”.***

Sadəliyi, nəcibliyi, mehribanlığı ilə yaddaqalan Zərifə xanım Ulu Öndərin təkcə həyat yoldaşı deyildi. Bu cəfakeş qadın həm də Ümummilli Liderimizin dostu, sirdaşı, eyni zamanda onunla çiyin-çiyinə dayanaraq öz ömür-gün yoldaşına mənəvi dayaq idi. Doğmalarının, onu tanıyanların xatirələrində də yer aldığı kimi, Zərifə xanım bir həyat yoldaşı, ana olaraq hər zaman fədakarlıqla çalışırdı ki, elmdə, ictimai işlərdə fəaliyyət göstərməsi ailəsinə kifayət qədər zaman ayırmasına mane olmasın. Fəxri adları, elmi titulları, mükafatları çox olan Zərifə xanıma taleyin verdiyi bir qabiliyyət idi ki, o bunu da bacarırdı.

***“... Mənim anam əsl alim idi. O, tibbin bütün incəliklərini öyrənməyə səy göstərirdi. Bununla bərabər, mənimlə, Sevillə məşğul olmağa, bizi Azərbaycanın layiqli vətəndaşları kimi tərbiyə etməyə, böyütməyə vaxt tapırdı. O, həmişə mənim qəlbimdədir”.*** Tanrının dünyaya göndərdiyi seçilmiş və xoşbəxt insanlardan biri kimi akademik Zərifə Əziz qızı Əliyeva haqqında oğlu, Prezident cənab İlham Əliyevin kövrək hisslərlə dilə gətirdiyi fikirlərində də görürük ki, bu zərif qadın əsl alim ömrü yaşamış, həyatını peşəsinin sirlərini dərindən öyrənməyə həsr etmişdi. Amma onun yaşam fəlsəfəsinin əsasını, heç şübhəsiz, yurduna, torpağına bağlılıq, vətəndaşlıq mövqeyi təşkil edirdi. Bütün mənalı fəaliyyətinin təməlində də bu amillər dayanırdı.

Bu gün ölkəmizdə onlarla məktəb, xəstəxana, poliklinika, bağ və parklar, küçələr akademik Zərifə Əliyevanın adını daşıyır. Son illərdə muxtar respublikamızda müasir tələblər səviyyəsində yaradılan tibb ocaqlarından biri də 1990-cı ildən görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın adını daşıyan Naxçıvan Şəhər Poliklinikasıdır. 2012-ci il mayın 30-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tibb müəssisəsinin açılışında iştirak etmişdir.

İllər bir-birini əvəz etsə də, əbədiyaşar alimin əziz xatirəsi daim ehtiramla yad edilir, işıqlı və nurlu əməlləri bu gün də minnətdarlıqla xatırlanır. Ömrünün hər günü mənəvi ucalığa bir pillə olmuş Zərifə xanım Əliyeva 1985-ci ildə əbədiyyətə qovuşdu, tarixin daş yaddaşına imzasını elm fədaisi, nur çeşməsi, qayğıkeş ana, vəfalı ömür-gün yoldaşı kimi həkk etdi. O, qısa, lakin mənalı, şərəfli bir ömür yaşadı. Həkim kimi də, ana kimi də bənzərsiz olmağa çalışdı. Böyük insan cismən aramızda olmasa da, qoyub getdiyi nur çeşməsi aydınlığını bir damla belə azaltmayıb. Əksinə, bu işıq onun yenidən Günəşi görmək imkanını qaytardığı insanlarda, onunla bağlı kövrək xatirələrdə əbədiləşib. Akademik Zərifə xanım Əliyeva elm, təhsil, səhiyyə, eləcə də ictimai-siyasi sahələrdəki misilsiz xidmətlərinə görə xalqımızın, gözlərinə nur verdiyi insanların yaddaşında şəfqətli həkim, səmimi və sədaqətli vətəndaş, eləcə də məğrur Azərbaycan qadını kimi daim yaşayacaqdır.

✍ **Məhəbbət MİRZƏYEVA**

## Görkəmli oftalmoloq Zərifə xanım Əliyevanın doğum günü qeyd edilib



Aprelin 26-da Naxçıvan Muxtar Respublikası Təhsil, Gənclər və İdman nazirliklərinin və Kəngərli Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın doğum günü münasibətilə Şahtaxtı kənd tam orta məktəbində tədbir keçirilib.

Tədbir iştirakçıları əvvəlcə görkəmli akademikin adını daşıyan məktəbin foyesindəki büstü önünə gül dəstələri qoyub, alimin həyat və fəaliyyətini əks etdirən muzeylə tanış olublar.

Tədbirdə oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri vəzifələrinin icraçısı, nazir müavini Elxan Nəcəfov, gənclər və idman naziri vəzifələrinin icraçısı, nazir müavini Məcid Seyidov, Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov, Şahtaxtı kənd tam orta məktəbinin direktoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Ehtimad Məmmədov çıxış edərək görkəmli akademikin həyat və fəaliyyətindən danışıblar. Bildiriblər ki, Azərbaycanın görkəmli alimi, tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi, akademik Zərifə xanım Əliyevanın tibbin müxtəlif sahələri üzrə apardığı tədqiqatlar, yaratdığı fundamental əsərlər Azərbaycan tibb elminin parlaq səhifələrini təşkil edir.

Qeyd olunub ki, görkəmli alim 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifi kimi tarixə düşüb. Zərifə xanım Əliyeva yüksəkixtisaslı kadrların hazırlanmasına da böyük əmək sərf edib. Onun birbaşa rəhbərliyi ilə gənc alimlər və həkim-oftalmoloqlar nəsli yetişib. Görkəmli alimin ömür yolu şagirdlərimiz üçün əsl nümunədir.

Tədbirin bədii hissəsində Şahtaxtı kənd tam orta məktəbinin şagirdləri Zərifə xanım Əliyevaya həsr olunan şeirləri bədii qiraət ediblər.





## Ümummilli Lider Heydər ƏLİYEV:

***“Ömür yoldaşım kimi, həyatımda keçdiyim yolda mənə həmişə dayaq, arxa olduğuna görə, ailə həyatımı çox xoşbəxt etdiyinə görə Zərifə xanım mənim üçün çox əzizdir. O, çox istedadlı, çox sadə insan idi. Onun xatirəsi bizim qəlbimizdə, bizim ailənin bütün gələcək davamçılarının qəlbində əbədi yaşayacaqdır”.***

# Müdrik ana haqqında düşüncələr

## Bir jurnalistin: “Sizin üçün ən sevimli insan kimdir?” sualına Heydər Əliyev cavab vermişdi: “Zərifə xanım” (esse)

Çoxlarınıza əlçatmaz kimi görünən ucalıq adlı bir zirvəni fəth etmək hamıya qismət olmur. Çünki bu zirvəyə gedən yol hamar deyil, dolaylardan keçir. Çünki bu zirvəyə gedən yolun hər addımı Vətənə, torpağa, xalqa, insana bağlılıqdan, dar ayaqda ona arxa olmaqdan, ömrünün mənasını bu yolda görməkdən qurulmalıdır. Məhz bu vaxt qazanılan hər nə varsa, onun sevinci insan ömrünə fərəh gətirir. Bu sevinc də, fərəh də qəlblərdə daim yaşayır, xatırlanır. Həmçinin o sevinci, o fərəhi sənə bəxş edən insan da öz əməlləri ilə yaddaşlardan silinmir. Bu gün cismən həyatda olmasa da, mənən xalqımızın qəlbində yaşayan Zərifə xanım Əliyeva kimi. Gözəl insan, gözəl ömür-gün yoldaşı, gözəl ana, gözəl həkim...

Bəlkə də, mən bu gün ürəklərimizdə əbədiləşən Zərifə xanımı olduğu kimi xarakterizə edə bilmirəm. Hər halda özümə orada təskinlik verə bilirəm ki, onun haqqında işlətdiyim bu bənzətmələr Zərifə xanım Əliyeva fenomenini hərtərəfli əhatə edə bilməsə də, mənim ürəyimdən gələn bənzətmələrdir.

Doğulduğu, böyüyüb boya-başa çatdığı, təhsil aldığı, işlədiyi, təmasda olduğu mühit bu gözəl Azərbaycan qadınının taleyinə yazılan bir qismət idi ki, onu ucalığa aparırdı. Və bu ucalığın fövqündə dayanmaqda isə Zərifə xanım Əliyevanın qurduğu ailənin də danılmaz rolundan danışmamaq olmaz. Ömrünün mənasını xalqına xidmətdə görən bir insanla ailə qurması ona taleyin böyük bəxşişi idi. O da bu böyük bəxşişin bəxtiyarlığını, sevincini gördü. Cəmiyyətimiz üçün iki layiqli övlad tərbiyə edib böyütdülər...

İnsanlara ana təbiəti, Günəşi, insanları görmək üçün yenidən nur bəxş edən Zərifə xanım gözlərini əbədi olaraq yumub haqq dünyasına qovuşanda Moskva şəhərində yaşasalar da, doğma Azərbaycanla nəfəs alırdılar. Həmin müdhiş xəbəri – ölümü ilə ölməzliyə qovuşan, ucalıq zirvəsinə çatan bu gözəl insanın həyata vida xəbərini Odlar Yurdu da göz yaşları içində qarşıladı. Həmin göz yaşları ilə millətin yetirdiyi qeyrətli qadını son mənzilə yola saldı. Onun ömür-gün yoldaşına başsağlığı verdi – bu başsağlığı həm də xalqın özünə verdiyi başsağlığı idi; çünki Zərifə xanım bu xalqın övladı idi. Bütün varlığı ilə Azərbaycan qadınına məxsus keyfiyyətləri özündə təcəssüm etdirən bir övlad, daşıdığı Azərbaycan qadını adını hər şeydən uca tutan, başqalarına nümunə olan bir övlad.

Sədaqətli ömür-gün yoldaşı, dahi siyasətçi, müdrik insan Heydər Əliyev Azərbaycana qayıtdıqdan sonra onu Moskvada “tək” qoymadı. Cənazəsini doğma Vətənə gətirdi. Bu da uzunillik ailə həyatında aralarında olan məhəbbətə, qəlbində yaşatdığı xatirələrinə, özünün Zərifəli günlərinə sədaqətin rəmzi idi.

O həm də gözəl ana idi – İlhamın, Sevilin anası. Bu cəhətdən də Zərifə xanım xoşbəxtlərin xoşbəxti idi. Çünki övladları da bu gözəl ananın öyüd-nəsihətlərinin işığında xalqa, Vətənə layiqli övladlar olduqlarını sübuta yetirdilər, bu gün də həyatlarının mənasını insanlara xidmət etməkdə görürlər – ataları, anaları kimi.

...Neçə-neçə monoqrafiyanın, elmi məqalələrin müəllifi olan Zərifə xanım özündə ana, qadın, insanlıq kimi ən ülvi hissləri cəmləşdirmişdi. Analıq, insanlıq, qadınlıq, həkimlik vəzifələrini canla-başla yerinə yetirməyə vaxt tapan Zərifə xanım bugünkü xoş və firavan günlərimizi yaşamağa vaxt tapa bilmədi.

Yaşasaydı bu ilin aprel ayında xalqımız anadan olmasının 101 illiyini qeyd edəcəkdi. Yenə də qeyd edəcəyik 101 illiyini, ancaq Zərifə xanımsız.

✍ **Muxtar MƏMMƏDOV**

# Unudulmaz xatirələr

*Zərifə xanım Əliyeva mənim üçün yüksək mədəniyyət, ziyalılıq, düzlük, öz işinə sadiqlik, bütün bilik və bacarığını xalqına xidmət işinə yönəldən böyük bir İnsan obrazıdır.*

***Professor Q.Nəsrullayeva***

*Ölməzlik özündən sonra xoş xatirə qoyub getmək bacarığıdır. İnsan ümumbəşəri dəyərlərin tükənməz xəzinəsinə verdiyi töhfə ilə, sülhün, xeyirxahlığın, gözəlliyin və etibarın təntənəsinə qəti inamı ilə ölməzliyə qovuşur.*

***Professor A.Nəcəfov***

*Zərifə Əliyeva çox ağıllı insan və böyük professional idi. Mən onu öz sahəsinin məşhur alimi hesab edirəm. Oftalmologiyada o, bir nömrəli idi.*

***Görkəmli oftalmoloq, akademik A.Nesterov***

*Xeyirxahlıq Zərifə xanımın həyat tərzi idi.*

***Akademik N.Puçkovskaya***

*Əgər mən peşəkar ədəbiyyatçı kimi Zərifə xanım Əliyeva haqqında əsər yazası olsaydım, heç şübhəsiz ki, onu “Əvəzolunmaz insan haqqında povest” adlandırardım.*

***Professor V.Şmelyeva***

*Zərifə xanım, hər şeydən əvvəl, görkəmli alim-oftalmoloqdur. Təkcə oftalmoloqdurmu?! O, eyni zamanda böyük filosof, gözəl pedaqoq və natiq idi. Onun elmdə məqsədyönlü fəaliyyəti indi də insanı valeh edir. Axı onun elmi fəaliyyətinin əsas istiqamətini görmə orqanının peşə patologiyası müəyyənləşdirirdi. Bu problemin həllinə çoxları girişə bilmirdi. Çünki elmin bu sahəsi olduqca ağırdır və onun araşdırılması təkcə dərin oftalmoloji savad yox, həm də fundamental təcrübi bilgilər tələb edir. Üstəlik, yüksək təşkilatçılıq bacarığının olması da vacibdir. Məhz bu keyfiyyətlər Zərifə xanım Əliyevaya xas idi.*

**Professor K.Trutneva**

# Dörd kəndimiz də Azərbaycan Bayrağına qovuşdu




Dünyadakı mürəkkəb siyasi konyunkturaya və Cənubi Qafqaza yaxın ərazilərdəki qaynayan münaqişələrə baxmayaraq, son günlər ərzində bölgəmizdə baş verən hadisələr bütün çətinliklərə rəğmən sülhə aparan yolların inşasının mümkün ola biləcəyini göstərir. Rusiya sülhməramlı kontingentinin missiya müddəti başa çatmadan işinin bitməsi ilə Qarabağdan çıxıb getməsi və ardınca da Qazax rayonunun erməni işğalında qalmış kəndlərindən dördünün danışıqlar yolu ilə Azərbaycana geri qaytarılması araqarışdıran imperialist və kolonialist qüvvələrin barmağı olmayan dünyanın ən qaynar nöqtələrində də sülhə nail olunmasını sübut etdi. Ölkəmizin qanuni əraziləri olmuş bu kəndlərin siyasi iradə ilə heç bir güllə atılmadan yenidən suveren ərazilərimizə qatılması Azərbaycanın növbəti diplomatik uğuru kimi hər kəsi sevindirsə də, bölgədə separatizmin və münaqişənin bitməməsi üçün əlindən gələni etməyə hazır olan bəziləri üçün bu, narahatlıq da doğurur.

İşğal altında saxladıqları kəndləri Azərbaycana qaytarmaları erməni mediasında, daha doğrusu, ABŞ, Rusiya, Fransa, Paşinyan və müxalifət arasında beş hissəyə parçalanmış erməni cəmiyyətində birmənalı qarşılanmasa da, reallıq odur ki, Ermənistanın 10 noyabr Bəyannaməsində göstərilən razılaşmaları yerinə yetirməkdən başqa çarəsi yoxdur. Azərbaycanın diktəsi ilə aparılan siyasi təmaslardan Ermənistan rəhbərliyinin gəldiyi digər bir nəticə isə atılan hər müsbət addımın gələcək üçün etibarlı zəmin yaradacağına inanmasıdır. Dövlət başçımız Prezident cənab İlham Əliyevin də vurğuladığı kimi, əgər avropalı, amerikalı cənablar əl çəksələr və Cənubi Qafqaz rahat nəfəs alsa, Azərbaycanla Ermənistan arasında heç bir məsələnin həlli mümkünsüz deyildir.

Bu gün Ermənistanı özünə tərəfdaş etməklə Rusiyaya qarşı gəlməyi planlayan Qərb ölkələri Azərbaycanın bölgədəki güclü mövqeyi ilə barışmaq kimi reallıqla da üz-üzə qalıb. Xüsusən Qırmızı dənizdəki təhlükəli logistika və İran-İsrail qarşılaşması ilə dünya neft qiymətlərinin riskli hala gəlməsindən ehtiyatlanan Qərbin öz maraqları naminə ən yaxın strateji tərəfdaşını belə pula sata biləcəyi göz qabağındadır. Belə olan təqdirdə içiboş vədlərlə Ermənistanı yanına çəkib onu revanşizmə və ya separatçıların yenidən dirilməsinə şirnikləndirən Qərbin siyasi oyunbazlarının Azərbaycanın güclü siyasi gedişləri və iqtisadi partnyorluğu qarşısında, sadəcə, susmağı üstün tutmağı təsadüfi deyildir. Öz qanlı keçmişlərində hər işğal etdikləri ərazidən qırğınlar və soyqırımlar törətməklə çıxmış Fransa və ABŞ-nin bu dəfə Rusiyanın Qarabağdan, Ermənistanın isə Qazax rayonunun dörd kəndindən səssizcə çıxmasını ağzıaçıq heyrətlə izləməsinin şahidi olmaqdayıq.

Bu gün özünün daxili siyasi və iqtisadi problemlərinə, işğala və terrora verdiyi dəstəyə görə qarşılaşdığı beynəlxalq sanksiyalara rəğmən Zəngəzur dəhlizini özünün qırmızı cizgisi elan edənlər üçün isə Qazax rayonunun azərbaycanlılar yaşamış bu dörd kəndinin Azərbaycana qaytarılması, əslində, toy-bayram olmalı idi. Həmin kəndlər ki bir vaxtlar ermənilər burada yaşamış qadın, uşaq, qoca demədən bütün azərbaycanlı bacı-qardaşlara divan tutmuş, onları otuz ildən artıq bir müddətdə evlərindən didərgin etmişdir. Bu gün həmin insanların öz doğma yurdlarına qayıtması da Uca Allahın ədaləti kimi Azərbaycan xalqına, onun güclü liderinə bəxş olunmuş ən böyük xoşbəxtlikdir. Bu xoşbəxtliyə ən azından sevinmək, onu bayram edənlərə dualar etmək isə müqəddəs dinimizə görə ən müstəcəb savabdır.

Qarabağdakı separatist tör-töküntülərin Xankəndi və ətrafında atıb getdikləri ağır və yüngül atıcı silahların hələ də tapıldığı, az qala hər gün işğaldan azad olunmuş ərazilərdə erməni minalarının partladığı bir dönəmdə Azərbaycana məxsus olmuş və Qarabağdan yüzlərlə kilometr uzaqda, dost Gürcüstana yaxın ərazidəki kəndlərimizin erməni işğalından qurtarılması dünyanın gözü qarşısında yeni bir pəncərə açdı. Bu, ermənilərin işğalçılıq iddialarının təkcə Qarabağda deyil, ölkəmizin Ermənistanla həmsərhəd olan hər yerində olduğunu bütün dünyaya sübut etdi. Qarşıda isə Sədərəyin Kərki kəndinə gedən yolun təmizlənməsi dayanır.

Əli CABBAROV

# Xalqımız sevinc dolu günlər yaşayır

## Əldə edilən uğurlar hər birimizi qürurlandırır

*(əvvəli 1-ci səhifədə)*



***İsmayıl HACIYEV – AMEA Naxçıvan Bölməsinin sədri, akademik:*** – Xalqımız çox acılar çəkmişdir. Ancaq müdriklərimiz demişlər ki, acı günlərin ömrü uzun olmur. Ümummilli Lider Heydər Əliyev xalqımıza qarşı yönəldilmiş məkrli siyasətin qarşısını aldı, xoş günlərin, ümidli günlərin ovqatını ortaya qoydu, xalqımıza sevinmək nə qədər yaraşır gerçəkliyini bərpa edə bildi. Gözlənilən arzu və ümidləri cənab İlham Əliyev həqiqətə çevirdi, "nəyin nə vaxt və necə ediləcəyini" vaxtında reallaşdırdı.

Artıq bir neçə ildir ki, xalqımız sevinc dolu günlər yaşayır. 44 günlük savaşın doğurduğu qürur və fərəh hissi Şuşa zəfərinin sevinci, ərazi bütövlüyümüzün bərpası Qələbə bayramı ilə qurtardı. Antiterror əməliyyatı – dostlara sevinc, düşmənlərə acı kədər gətirən sonluq, suverenliyimizin bərpası. Bircə gün içərisində Azərbaycan ərazisindəki Ermənistan ordusunun qalıqları və tör-töküntülərinin darmadağın edilməsi, separatçı-terrorçu dəstələrin təslim edilməsi, onların "başbilənlərinin" həbsi və Xankəndidə hərbi parad. Uzun illər həsrətində olduğumuz qələbə bayramları!

Aprel hadisələri sevinc üstünə sevinc gətirdi. Bu hadisələrin memarı, dünyada nüfuzlu dövlət xadimi kimi tanınmış və şöhrət qazanmış Prezident cənab İlham Əliyevdir.

Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 44 günlük müharibənin nəticələrini təsdiqləyən 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatına əsasən Qarabağa müvəqqəti yerləşdirilmiş rus sülhməramlılarının bölgəni tərk etmələri nəinki ölkəmizin, eləcə də, bütövlükdə, Cənubi Qafqaz regionunun gündəmində olmuşdur. Mövcud istiqamətdə müxtəlif fikirlər səsləndirilir, mülahizə və rəylər söylənilirdi. Əlbəttə, ilk növbədə, vurğulanmalı bir məqam var: Rusiya sülhməramlı kontingentinin Qarabağdan vaxtından əvvəl çıxarılması qərarı Azərbaycan və Rusiya münasibətlərindəki qarşılıqlı inam və etibarın göstəricisidir. Çünki başa düşüldü ki, Qarabağda məhdud sayda rus hərbi hissələrinin mövcudluğuna ehtiyac yoxdur. Çünki orada Bakı ilə Moskva arasında etimad mühiti var. Rusiya çox yaxşı dərk edir ki, Azərbaycan regiona kənar qüvvələrin daxil olmasına yol verməyəcək. Prezident cənab İlham Əliyevin ustalığı ondadır ki, mövqeyini əməli işi ilə dəfələrlə təsdiqləyib.

Hazırda Azərbaycanda böyük qələbənin sevinci yaşanır. "Ağıl olan yerdə zora ehtiyac yoxdur" fikri Qazax rayonunun 4 kəndinin azad olunmasında özünü göstərdi. Silah işlətmədən, bir güllə atmadan kəndlərimiz özümüzə qaytarılır. İllərdən bəri işğal altında qalmış kəndlərin ölkəmizə qaytarılması siyasi və dövlətçilik fəaliyyəti ilə həmişə qürur duyduğumuz Prezident cənab İlham Əliyevin liderlik və diplomatik məharəti sayəsində baş tutmuşdur. Əllərində Azərbaycan Bayrağı ilə sevinc hisslərini nümayiş etdirən Qazax rayonunun işğaldan azad olmuş kənd sakinlərinin sevincinə bütün Azərbaycan xalqı qoşulur. Azərbaycanlıların Vətən sevgisi və güc-qüdrəti düşməni kəndlərimizi qaytarmağa məcbur etdi. Nəhayət, haqq-ədalət zəfər çaldı!



***İsmayıl QƏRİBLİ – Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hüquq siyasəti komitəsinin sədri:*** – Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən ardıcıl və vahid xarici siyasət strategiyası nəticəsində Ermənistan və onu müdafiə edən dövlətlər Azərbaycanın öz ərazilərini azad etmək iradəsini gördülər və Azərbaycanın iradəsi ilə hesablaşmağa məcbur oldular. Ermənistan anladı ki, Azərbaycanın torpaqlarını qaytarmadan, Azərbaycanla sülh şəraiti əldə etmədən onun siyasi və iqtisadi baxımdan heç bir gələcək perspektivi yoxdur.

Digər tərəfdən, Azərbaycan Respublikası Prezidentinin müdrik yanaşması ilə Azərbaycanın regionda sülh, sabitlik və əməkdaşlığa əsaslanan siyasətinin perspektivi region dövlətləri tərəfindən qəbul edildi. Qazax rayonunun dörd kəndinin Azərbaycana qaytarılması da bu prosesin davamıdır. Eyni zamanda Azərbaycanla Ermənistanın birbaşa, kənar qüvvələrin müdaxiləsi olmadan görüşərək öz məsələlərini həll etmək iradəsini ortaya qoyur.



***Şəhid atası Mayis GÜLMƏMMƏDOV:*** – Bu günlərdə, həqiqətən, çox gözəl xəbərlərin şahidi oluruq. Həm rus sülhməramlılarının vaxtından əvvəl torpaqlarımızı tərk etməsi, həm də 4 kəndin qaytarılması bizi çox sevindirdi. Bu onu göstərir ki, 44 günlük Vətən müharibəsində düşmənə layiqli dərs verən ordumuzun, Ali Baş Komandan cənab İlham Əliyevin qətiyyəti əldə etdiyimiz uğurların əsasını təşkil edir. Dəfələrlə də cənab Prezident çıxışlarında "dəmir yumruğ"un yerində olduğunu bildirib. Elə bu yumruğun təsiridir ki, Ermənistan Azərbaycanın dedikləri ilə razılaşır. Çünki başqa yolu da qalmır. Qazax rayonundakı 4 kəndin Azərbaycana heç bir itki, şəhid vermədən qaytarılması da bunu bir daha təsdiq edir. Digər tərəfdən, indiyədək deyirdilər ki, rus sülhməramlıları Qarabağı asanlıqla tərk etməyəcəklər. Hansısa yolla müddəti uzadacaqlar. Amma hamımız gördük ki, torpaqlarımızı həmişəlik, həm də vaxtından əvvəl tərk etdilər. Bu, bir daha cənab İlham Əliyevin qətiyyəti, həyata keçirdiyi siyasətin nəticəsində mümkün oldu. Buna görə də bir şəhid atası kimi inanıram ki, Prezidentimiz cənab İlham Əliyevin sayəsində bundan sonra da belə xoş xəbərləri eşidəcəyik.



***Gültəkin ƏLİYEVA – Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi, tibb üzrə fəlsəfə doktoru:*** – Həqiqətən də, Azərbaycanımız son günlərdə böyük tarixi uğurlara şahidlik edir. Vətən müharibəsində əldə etdiyimiz qələbədən sonra gördük ki, möhtəşəm Zəfərimizi, uğurlarımızı həzm edə bilməyənlər çoxdur. Buna görə də daim müxtəlif xarici qüvvələrin təsirinə məruz qalırıq. Amma bunlar bizi qorxutmur, əksinə, cənab Prezidentimizin ətrafında daha sıx birləşdirir. Çünki 44 günlük Qələbənin müəllifi də, Azərbaycan torpaqlarında separatizmin kökünü əbədi kəsən də odur. 30 ilə yaxın bir dövrdə qulaqlarımız yalnız atəşkəsin pozulmasını, şəhid xəbərlərini eşidirdi. İndi isə rus sülhməramlı hissələrinin torpaqlarımızdan çıxmasını eşidirik, illərdir, düşmən işğalı altında olan kəndlərimizin heç bir güllə atılmadan qaytarılmasını eşidirik, ən əsası doğma Qarabağımızda – Xankəndidə dünyaya gələn körpə balamızın xoş xəbərini eşidirik. İllərdir, bu cür xəbərləri yalnız arzulaya bilərdik. İndi isə ayrı bir reallıqla, həqiqətlə üz-üzəyik. Həm də təkcə biz yox, bizi sevənlərin və sevməyənlərin hamısı. Bu reallığı yaradan isə dövlət başçımız cənab İlham Əliyevdir. Bir daha Prezidentimizlə qürur duyuruq!



***Fuad MİRZƏYEV – dövlət qulluqçusu:*** – Qazax rayonunun Bağanis Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı kəndlərinin sülh yolu ilə azad olunması və iki ölkə arasında ilk sərhəd dirəyinin quraşdırılması Azərbaycanın növbəti diplomatik uğurudur. Praqmatik düşüncə, diplomatik bacarıq və qətiyyətli siyasətin uğurlu təntənəsi 4 kəndin heç bir silah işlədilmədən geri qaytarılmasını təmin etdi. Eyni zamanda Rusiya sülhməramlı kontingentinin Azərbaycan ərazilərindən problemsiz və vaxtından əvvəl çıxarılması da bu diplomatiyanın uğurudur. Bu proseslər onu göstərir ki, qarşıdakı hədəflərimizə də tezliklə nail olacağıq.

*Bəli, Azərbaycan hər keçən gün yeni uğurlar əldə edir və addım-addım öz hədəflərinə çatır. Ölkə başçısı cənab İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət nəticəsində Azərbaycan parlaq gələcəyə inamla irəliləyir. Bu siyasətin təməlində isə Azərbaycan Prezidentinin uzaqgörənliyi, qətiyyəti, yeni reallıqlar yaratmaq bacarığı dayanır.*

Səbuhi HƏSƏNOV

# Yubileyin mübarək, əzəmətli yurdum!

"Dünyanın naxışı" dedilər Naxçıvanıma. Təkcə gözəlliyinə görə yox, həm də qüdrətinə, təmkininə, qədimliyinə, yetişdirdiyi sənətkarlara, qəhrəmanlara görə...

Naxçıvanım zaman-zaman düşmənlərin tamah dişinə tuş oldu. Ancaq mərd dayandı, heç vaxt düşmənə baş əymədi. Tarixin səhifələrinə öz möhürünü vurdu. Azərbaycanın qüdrətli dövlətinin – Atabəylər səltənətinin mərkəzinə çevrildi. Həmin dövrün yadigarı, məhəbbət və sədaqətin əzəmətli simvolu – Möminə xatın türbəsi Naxçıvanımın köksündə dikəldi. Ağlın, bacarığın, sənətkarlığın, zəkanın nəticəsi olaraq dünyaya meydan oxudu. Bu möhtəşəm abidənin memarı Əcəmi Əbubəkr oğlu Naxçıvani öz nisbəsi ilə həm özünün, həm də yaratdığı əsərin dövrün sərt sınaqlarından üzüağ çıxaraq bu torpağın qədimliyinin və şöhrətinin gələcək nəsillərə çatdırılmağına inanırdı.

Doğma yurdum! Sən övladlarını sevdiyin kimi, övladların da səni sevdi. Sənin qoynuna sığınmağa, əbədi uyumağa can atdı. Sənin qoynundan sənət meydanına atılan, bəşəri ideallar carçısı, gözəllik və sevgi şairi, bütün insanları və insanlığı sülhə çağıran ulu Cavid kimi... 41 il Sibirin buzlu, çovğunlu, qarlı, şaxtalı çöllərində narahat ruhu göylərdə dolaşan şair doğma anasına – Naxçıvana qovuşacağı günü gözlədi. Onun qəribliкdə dolaşan narahat ruhunu elə bu torpağın yetişdirdiyi qeyrətli övladı Ulu Öndər Heydər Əliyev sakitləşdirə bildi. Hüseyn Cavidin nəşi Uzaq Sibirdən doğma Naxçıvana gətirildi. Səhv qərarların pərən-pərən saldığı bir ailənin övladları Naxçıvanın mehriban qoynunda əbədi dinclik tapdı. Ölüm başqalarını ayırarkən Cavidlər ailəsini birləşdirdi...

Böyük torpağın kiçik parçası, dünyanın ən gözəl məkanlarını geridə qoyan, ata ocağım – Naxçıvanım! Ulu babalarımızdan, ağbirçək nənələrimizdən miras qalan, ruhumuza çökən, bizi saflaşdıran, mənəviyyatımızı bütövləşdirən dini inanclarımızın müqəddəs ocağıdır ulu diyarım! Bəlkə, bu da Allahın bu balaca yurduma lütf etdiyi ən böyük nemətidir! Adı müqəddəs "Qurani-Kərim"də keçən, dünyanın müxtəlif yerlərindən dəstə-dəstə ziyarətinə gəldikləri Əshabi-kəhf də sənin qismətinə düşdü. Çünki sən yarandığın gündən pak və ucasan. Bu paklığın rəmzi həm də sənin qoynundan fəvvarə vuran, göz yaşı kimi dumduru, min bir dərdin dərmanı olan şəfalı sularındır, şüşə kimi büllur havandır, yüz cür nemət bitirən bərəkətli torpağındır. Dastanlarımızın, romanlarımızın, şeirlərimizin, mahnılarımızın ilham mənbəyi – Naxçıvanım!

Ulularım, hökmdar və xan babalarım cəsarəti, igidliyi, mərdliyi səndən aldılar, ulu yurdum! Sonrakı nəsillər də ulu babalarından bəhrələndilər. Tarixin ən mürəkkəb və çaxnaşıq vaxtında sən düşmən qabağında mərdliklə dayandın.

Birinci Qarabağ müharibəsi zamanı Sədərək döyüşləri bu qəhrəmanlığın əyani sübutu idi. Qarabağda qanlı döyüşlər gedib torpaqlarımız işğaldan azad olunanda Naxçıvan əhalisi öz torpaqlarını göz bəbəyi kimi qoruyurdu. 1990-cı illərdə düşmən doğma Naxçıvanıma daha güclü zərbə vurmaq istədi. Bu yurdu işıqsız, qazsız, ərzaqsız qoydu. O illərdə Naxçıvan tam blokada şəraitində idi. Lakin mərd xalqım sınmadı, əyilmədi, əksinə, daha da sıx birləşdi, çətin günlərdə bir-birinə dayaq oldular, qonşu tikəsini qonşu ilə bölüşdü. Həmin ağır günlərində sənin isti qucağına daha məhəbbətlə sığındıq, bizə nəsib etdiyin nemətlərindən, insanların bir-birinə təmənnasız mərhəmətindən, qüdrətindən, səngərli qalalarından, dağlarından güc aldıq. Düşmən bundan qorxdu, səksəndi, hücum planından, sənin torpağına ayaq basmaqdan çəkindi.

Böyük yurdumun kiçik alınmaz qalası, Naxçıvanım!

Mənfur düşmənin çirkin niyyətindən çəkinməyərək yavaş-yavaş çətinliklərdən çıxmağı bacardın, özünə gəldin. Övladların sənin tarixi qüdrətini özünə qaytardılar. İstiliyin, işığın sönmədi, daha da gurlandı, alovlandı. Yeni tipli məktəblər, xəstəxanalar, elm ocaqları, sənaye mərkəzləri, mədəniyyət ocaqları sıralandı. Yollar abadlaşdı, yaşıllıqlar göz oxşadı. Körpə fidanlar – məktəblilər yeni texnologiya avadanlıqları ilə təmin olunmuş doğma məktəblərin sinif otaqlarına tələsirdilər.

Gözəl yurdum! Səni daha ağır bir imtahan gözləyirdi. Azğın düşmənin caynağına keçmiş, sənin qonşuluğunda yerləşən, ağrılı yerimiz Qarabağı azad etmək, o yurdun əsl sahiblərini öz yurd-yuvalarına qaytarmaq!

2020-ci il 27 sentyabrda başlanan Vətən müharibəsi səni də müharibəyə səslədi. Bu çağırışa cavab verən qəhrəmanların heç çəkinmədən, qorxmadan, gözünü belə qırpmadan azadlıq müharibəsinə tələsdilər. Səfərbərliyə yüzlərlə igid oğul və qızların qoşuldu. Yenə ağır sınaq, ağır imtahan qarşısında qaldın, doğma Naxçıvanım! Quru yolların qalmamışdı anam Azərbaycanla. Əhalinin gözü səmada, qulağı səsdə idi. Vətən, torpaq uğrunda şəhid övladların gətirən təyyarələr bir tərəfdən göz yaşlarımıza, digər tərəfdən, fəxarət hissimizə vəsilə oldu. Övladların heç vaxt görmədiyi, üstündə gəzmədiyi sehrli, möcüzəli torpaqları qarış-qarış düşmən tapdağından təmizlədilər. Qarabağın zümrüd qaşı Şuşanın mərkəzində məhz sənin övladın qarmonda "Qarabağ şikəstəsi" çaldı, sanki yanan ürəklərə öz əzəmətli notları ilə sərin su çilədi. Mədəniyyət ocağımız, xan babalarımızın əmanəti, Bülbül, Üzeyir, Natəvan, Zakir nəfəsli torpaq, Vaqifin əbədi məskəni Şuşanın dağlarına, daşlarına, divarlarına Naxçıvan ərənlərinin imzası həkk olundu, nəfəsi hopdu. İndi Naxçıvanın hər bölgəsində o haqq savaşının şahidi uyuyur, sinəsi orden, medallarla bəzənmiş qazisi, veteranı, zabiti qürurla addımlayır.

Tarixin növbəti səhifələrinə yenə də sənin adın yazıldı, Qarabağın azadlıq kitabına bir Naxçıvan başlığı əlavə olundu. Sehrindənmi, möcüzələrindənmi, qüdrətindənmi danışım? Yüzlərlə şanlı günlərinin hansından söhbət açım?

Dünyanın yarısını lərzəyə salan, hökmünə, qorxusuna, zəhminə çox ölkələrin hökmdarlarının baş əydiyi, təzim etdiyi fatehlər fatehi Əmir Teymuru kiçik bir qalanla 14 il susdurmadınmı? "Əlincə" adlı qüdrətinlə diz çökdürmədinmi? Elə həmin vüqarlı qala bu gün də turistlərin ziyarət etdiyi daş abidələrindən biridir.

Bəlkə, qoynunda gizlətdiyin möcüzələrdən danışaq? Bəşəriyyətin yaşam səbəbi, nəfəs yollarının müalicəsinə kömək edən, min illərdir, tükənməyən, min illərdən sonra da tükənməyəcək duz dağlarının sehrli səsini çox uzaq ellərdən aldığı soraqdanmı? Daxili xəstəliklərin, mədə-bağırsağın dərmanı şəfalı mineral bulaqlarındanmı?

"Bir kərə yüksələn bayraq bir daha enməz", – deyən azadlıq mücahidi Məmməd Əmin Rəsulzadə, görəsən, inanardımı ki, 1920-ci ildə zor gücünə endirilən üçrəngli bayrağımız ikinci dəfə məhz Naxçıvanda, elə bu torpağın qeyrətli və vətənpərvər oğlu Ümummilli Lider Heydər Əliyev tərəfindən yenidən Vətən göylərində əzəmətlə dalğalandırılacaq?! Bu simvolik bir işarə deyildimi? Əziyyət çəkən, tam blokadaya salınan, Azərbaycan tarixinə qızıl hərflərlə azadlıq, müstəqillik zəfərləri yazdıran məkanca kiçik, məzmunca böyük qəhrəmanlar yurdu doğma Naxçıvanım bu ucalığa, bu məqama tam layiq bir ərazi, bir məkan idi!

Doğma diyarım! Uşaqlığımın, gəncliyimin, tələbəlik illərimin, xatirələrlə dolu günlərimin şahidi gözəl məkanım – Naxçıvanım! Günlər aylara, aylar illərə, illər əsrlərə adlayacaq. Sən anamız Azərbaycana qovuşacaqsan. Gündəmi zəbt edən Zəngəzur dəhlizi arzusu reallaşacaq, sən Türk dünyasına açılan qapı olacaqsan. Sənə həsrətlə, hərisliklə baxan düşmənin arzusu gözündə qalacaq, pis niyyətləri alt-üst olacaq. Bir daha sənə kəc baxmağa cəsarət etməyəcək.

Sən Şərqə səfər edənlərin yolüstü dayanacaq məntəqəsi olacaqsan... Sənin gözəlliyin, müqəddəsliyin, vətənpərvərliyin, əyilməzliyin insanları heyrətə gətirəcək.

Yaradılışın, ad günün, 100 yaşın mübarək, ata yurdum, ana əmanətim, Nuh Peyğəmbərin ocağı – Naxçıvanım!

**Məlahət TAĞIYEVA**

*Məqalə "Şərq qapısı" qəzetinin elan etdiyi "Naxçıvan 100 ildə" yaradıcılıq müsabiqəsinə təqdim etmək üçündür*



*Naxçıvan... Adını eşidincə radionun, televizorun səsini daha da yüksəldirsən, internetdə zaman keçirərkən haqqında bir mənbəyə rast gəldikdə hər işini bir kənara atıb səhifəni diqqətlə oxuyursan, avtobusda gedərkən onunla bağlı bir söhbəti eşidib bütün fikrini oğrun-oğrun bu dialoqa yönəldirsən, şəhərdə gəzişərkən boş ərazilərdə yeni layihələrin inşasını görüb qürurlanırsan, küçələrində rahat-rahat yeriyərkən xoşbəxtlik duyğuları və xoş təbəssüm yaranır simanda...*

# Sən Allahın vəsf etdiyi bir əsərsən

## Səni necə sevməyim mən?..

Budur, yenə şəhərimin gəzintisinə çıxmışam. Qulağımda səslənən o musiqi yenə də hisslərimə hakim kəsilir. Nə gözəl deyib nəğməkar şairimiz İslam Səfərli:

*Mahnıdır yelkənim*
*Əzəldən mənim.*
*Gəl sevək vətənim*
*Azərbaycanı...*

Axı necə də sevməyəsən bu məmləkəti? Tarixi özü qədər qədim, sabahın özü qədər müasirdir bu diyar... Gəzdikcə hər guşəsində, hər küçəsində, hər döngəsində bir tarixin izini, bir yeniliyin üzünü görürsən. Anamız Möminə xatının şərəfinə ucaldılmış möhtəşəm türbəyə bir baxın! Necə öyünməyəsən axı qadın adının ən yüksək təcəssümü ilə. Şəhərim min illərdir, bu şərəfi qoynunda ucaldıb yaşadır. O yaşadıqca, onu yaşatdıqca biz də öyünür, qürur duyuruq.

Addım-addın gəzdikcə Zaviyə, Şahab, Pirqəmiş, Əlixan, Sarvanlar, Gömayıl, Xoşulu, Atabəylər, Qala məhəllələrini elə tarixin özündə hiss edirəm özümü... Tarixi kitablarda adına rast gəldiyim bu küçələr neçə yüzillikləri yaşadır hər tinində, dolanbacında... Budur, Şahab məhəlləsində əzəmətlə ucalan Əcəmi sənətinin gözəl nümunəsi olan Yusif Küseyir oğlu türbəsinin yaxınlığındayam. Burada ayaq saxlayır, seyr edirəm xalqımızın qədim tarixindən soraq verən türbəni, bu vüqarı daha içdən, daha ürəkdən yaşayıram...

Naxçıvan xanlarının iqamətgahı olan Xan Sarayının əzəmətli görkəmi fonunda dəqiqələrlə dayanıb sakit-sakit axan Xan Arazın mənzərəsini seyr etmisinizmi heç? Tamam fərqli bir duyğulara qərq edir bu mənzərə insanı. Yüz illər öncəni yaşayırsan sanki. Bənzəri olmayan gözəl diyarımız uğrunda gedən müharibələr, Arazı Vətənimizin sərhədinə çevirən müqavilələr... Bəlkə də, elə bu səbəbdəndir Arazımın lal axmağı...

Naxçıvanqala... Vətənimin daha bir qədim siması, məğrurluq ünvanı. Yüz illərin yadigarı qalın qala divarları üzərində dəfələrlə dövrə vurub şəhərimi bir də bu yüksəklikdən seyr etmək bir başqa duyğudur. Müasir binalar yaşıl ağacların fonunda necə də xoşbəxt görünürlər? O binalarda yaşayan, işləyən minlərlə eloğlumun bugünkü xoşbəxt həyatının bir nümunəsi də bu deyilmi?..

Gecələr rəngarəng işıqların bərq vurduğu şəhərimdə təbiət də şair ruhlu olur sanki. Elə işıqların düzülüşü də bir şeir bəndinə bənzəmirmi? Fənərlər misra olur, ağaclar bir qafiyə. İnsan isə sanki elə öz şair ruhunu təbiətə təslim edir. Yürüdükcə gecələrə doğru hüzur verən bir sakitlik, bir xoşbəxtlik duyğusu ruhumuzu sarır. Ürəyimizə hökm edən duyğular, beynimizə hakim olan hisslər gecələrin ecazkarlığına təslim olur. Buradan gecə görüntüsünü əks etdirən bir foto canlanır gözlərim önündə. Rəngbərəng çilçıraqlara qoşulub həmahənglik təşkil edən avtomobil işıqları sanki bir-biri ilə parlaqlıq yarışına girib. Qala divarlarından enib geniş meydanı gəzirəm... Əsrlər öncə müharibələrə sinə gərib doğma sakinlərinə qucaq açan bu tarixi yeri necə sevməyəsən axı?!

Daşına, torpağına vurğun olduğum bu qədim diyar bu gün çox xoşbəxtdir. Çünki yurddaşları onun nazını çəkir, qayğısına qalır, sevgiylə oxşayır hər qarışını... Tarixdən yadigar qalan uçuq-sökük divarları yenidən bərpa olunan, əzəmətinə qovuşan şəhərim isə gündən-günə, fərəhlənir, qürurlanır, fərəhləndikcə daha da gözəlləşir, sevgiylə qucaq açır onu sevənlərə... Bu gün diyarım o qədər xoşbəxtdir ki, bu xoş növrağını bütün dünyaya bəyan edir. Hər il neçə-neçə festivallara, beynəlxalq tədbirlərə qucaq açaraq minlərlə turistə sübut edir özünü. Qalanın künclərindəki bürclər də onun fotolara həkk olunan gözəl guşələridir. Axı bu bürclərdə qədim sənət nümunələrimiz yaşadılıb.

Bürclərdən birinin yanında bir keçid də var. O keçid bizi 5 min il əvvələ aparır. Bəşəriyyətin beşiyi ünvanına. Babamız Nuhun türbəsi qədim Naxçıvanımın əbədi daş pasportudur. Bəli, əbədi... Bir neçə on il bundan öncə, sadəcə, adını eşitdiyimiz, bir də kiçicik qalıqlarına şahidlik etdiyimiz türbə, budur, yenidən qarşımızda ucalır. O ucaldıqca biz də ucalırıq. O ucaldıqca sübut edir ki, biz varıq, minillik tariximizə sahib çıxdıq. Nə qədər ki biz varıq, o da var olacaq.

Diyarımın hər tərəfi bizə ömürlük xoşbəxtlik, qürur bəxş edir. 20-30 il öncəki mənzərələr hara, qədimliyi ilə müasirliyin vəhdət daşıdığı ecazkar, gözoxşayan şəhərim hara... Düzdür, o dövrün də şəhəri bizimki idi. Toz-torpaq altında qalmış şəhərimin küçələri, ağacları qırılıb çılpaq qalmış çölləri, səliqəsiz yolları, tarixə düşmək təhlükəsi ilə üzləşmiş tarixi abidələri... Amma zaman sübut etdi ki, yurduna sahib çıxmaq, sevmək amalı qarşısında blokada məngənəsi belə tab gətirə bilməz. Ulu Öndərimizdən bizə miras qalan əsl vətənpərvərlik, yurd sevgisi bu gün, sözün əsl mənasında, Naxçıvanın hüsnünü bəzəyir.

Bir də gəlin Bayraq Meydanı zirvəsindən seyr edin sevimli şəhərimi. Şəhərimin ən yüksək guşəsində qürurla dalğalanan bu bayraq naxçıvanlılara ikiqat qürur bəxş edir. Dövlət müstəqilliyimizin əbədi təntənəsi olan bayrağımız ilk dəfə ulu Naxçıvanımda Ulu Öndərim tərəfindən yüksəldildi... Elə bu qürurla da meydanı dörd gəzib şəhərimi bir daha seyr edirəm. Hər tərəfi yaşıllıq və bu yaşıllıqdan əzəmətlə boylanan tarixi abidələrimiz, onları gözəl çalarlarla təqib edən müasir binalar, tərtəmiz parklar, abad küçələr, işıqlı yollar. Bütün bunlar Vətən, yurd sevgisinin mücəssəməsidir. Bu gözəlliyi yaradan və yaşadan biz özümüzük.

Bəlkə də, Naxçıvanı dünyada yeganə edən budur: biz təkcə qurub-yaratmırıq. Onları qorumaqla həm də yaşadırıq. Yaşadırıq ki, biz də yaşayaq. Çünki biz diyarımızı canımızdan çox sevirik və bu sevgini hər kəsə bəyan edirik.

**Gülcamal TAHİROVA**



# 100 yaşlı muxtariyyətin 34 illik zəfər qalası

Mübarizlik rəmzi, qürur, iftixar mənbəyi, inam, etibar yeridir, müasir tariximizin vətənpərvərlik nümunəsi, xalqımızın cəsarət, ləyaqət, sədaqət məktəbidir Sədərək. 1990-cı illərin ağrılı-acılı günlərinin ən ümdə şahidi, Ümummilli Liderimiz Heydər Əliyevin dühası, fenomenliyi, qəhrəman oğulların şücaəti, al qanı ilə, birlik, bərabərlik sayəsində yenilməzlik salnaməsi yazan Azərbaycanın qeyrət qalası, şərəf məbədidir bu yurdumuz. 44 günlük Vətən müharibəsində Məmmədhəsən Sadiqli, Tağı Abdullazadə, Ərtoğrul Nadirli, Rüfət Gözəlov kimi qəhrəmanları ilə böyük Qələbəmizə töhfələr verərək bir daha göstərdi tükənməyən əzmətini, bitməyən qətiyyətini, əzmini, iradəsini. Üzük qaşı kimi dörd bir yanını dövrələyən dağların vüqarından, dövlətimizin qüdrətindən, ordumuzun müzəffərliyindən, gecə-gündüz keşiyini çəkən oğulların hünərindən güc alan zəhmətkeş insanlarının yaratdığı bərəkət limanına, quruculuq, abadlıq, inkişaf abidəsinə çevrilir günü-gündən bu bölgəmiz. Vətənə sədaqət, yurda məhəbbət, el-oba təəssübkeşliyi nümunəsi kimi bugünkü və gələcək nəsillər üçün örnək olan məğrur duruşlu Sədərək əmin addımlarla irəliləyir yüksəliş, tərəqqi yolunda...

***Alınmaz qalanın, yenilməz zirvənin möhtəşəmliyi önündə...***

Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyində bu bir əsrlik möhtəşəm tarixin üçdəbiri qədər inkişaf, tərəqqi yolu qət edən, ölkəmizin ictimai-siyasi həyatında əvəzsiz yerə və rola malik Sədərək rayonuna üz tuturuq. Yolboyu gözlərim önündə fəsillər gözəli baharın bir-birini tamamlayan bənzərsiz mənzərələri, füsunkar görünüşlü, büsatlı günlərini yaşayan abad yaşayış məntəqələrimiz canlanır.

Dərələrdən, təpələrdən üzübəri boy göstərən yamyaşıl taxıl, qarğıdalı zəmiləri, barverən ağaclar, ciddcəhdlə çalışan insanlar, zəhmətkeşlik tablosunun füsunkar çalarlarıdır... Kəngərli, Şərur rayonlarının müstəqilliyimizin, dövlətçiliyimizin rəmzi sayılan Bayraq meydanlarını, böyük Qələbəmizin müəllifləri – şahidlərimizin fotoşəkillərini gördükcə fəxarət hissinə bürünür, qürurla etizaza gəlir vücudum... Çox keçmir ki, Sədərəyin ümumi siması daha da gözəlləşdirən, ilbəil daha da büsatlanan Heydərabad qəsəbəsinin timsalında iş-güc dalınca tələsən insanların yol aldığı, avtomobillərin şütüdüyü geniş küçələr, səliqə-sahmanı ilə gözoxşayan rahat səkilər, müasir görünüşlü inzibati binalar, mağazalar, həyətində qaçdı-tutdu oynayan uşaqların şaqraq gülüşlərinin ətrafa yayıldığı məktəb binaları, həmişəyaşıl ağaclarla bəzənən park və xiyabanlar qarşılayır bizi. Budur artıq 1 saat 20 dəqiqədən sonra 80 kilometrlik məsafə arxada qalır, ünvana yetişirik...

Sədərəkdə ilk müsahibimiz 1990-cı illərin qanlı-qadalı günlərinin əyani şahidi ***Vəzir İmamverdiyev***dir. Doğma yurdunu bədxah düşməndən qorumaq naminə günlərlə ac-susuz keşiyində dayanan döyüşçü deyir ki, Ümummilli Liderimizin adlandırdığı kimi Sədərək Naxçıvanın qeyrət qalası statusunu, sözün əsl mənasında, şərəflə, ləyaqətlə daşıyır. Ötən əsrin sonlarında rayonun (kəndin) keçdiyi mübarizə yolu, fəth etdiyi qəhrəmanlıq zirvəsi barədə nə qədər danışsan, döyüşçülərin şücaətini, insanların əzmini, yurda bağlılığını nə qədər vəsf etsən, yenə də azdır. Sədərəklilər heç zaman düşməndən çəkinməyiblər, sözü üzlərinə deyən insanlar olublar. Hələ 1988-89-cu illərdə mənfur ermənilər tərəfindən qərbi azərbaycanlıların öz yurd-yuvalarından deportasiyası, Qarabağın Azərbaycandan qoparılması prosesini ən yaxından müşahidə edən və ən yüksək etirazını bildirən də məhz sədərəklilər idi. Bundan qəzəblənən yağı düşmən 1989-cu ildə bizim "Qaraağac" deyilən məşəlik ərazidə nə qədər ağaclar var idisə hamısını çapıb-taladılar. Bütün sakinlər birlik göstərərək bu ədalətsizliyə qarşı çıxdıq və onları geri oturtduq. 1990-cı il Bakıda hələ Yanvar qırğını başlamamışdan bir neçə gün öncə, daha dəqiq desək, yanvarın 17-18-dən başlayaraq rayonumuz aramsız atəşə tutuldu. Sədərək ilk şəhidlərini ayın 18-19-da verdi. Vətənimizin mərd oğullarından Məhərrəm Seyidov, İdris Məmmədov, Etibar Məmmədov və digər silahdaşlarım yurdumuzun müdafiəsində böyük şücaət göstərərək müqəddəs zirvəyə ucaldılar. 1991-ci ildə də Sədərəyə hücumlar davam etdi, 1992-ci ildə isə rayon (kənd) uğrunda şiddətli döyüşlər getdi. Sizi inandırım ki, buraya əhalinin sayından bir neçə dəfə çox top mərmisi düşdü, 100-dən artıq ev dağıdıldı. Döyüşün qızğın getdiyi mövqe isə Miltəpə istiqaməti idi. Həmin mövqedə bizim yeni yaradılmış ordumuzun 14 əsgəri və 4 könüllü insan şəhid oldu...

***Müqəddəs amal uğrunda hər kəs səfərbər idi...***

Vəzir İmamverdiyev deyir ki, erməniləri bu qədim yurdu ələ keçirməyə iştahalandıran Sədərəyin ticarət, nəqliyyat əlaqələri baxımından əlverişli mövqedə yerləşməsi, xüsusilə də Türkiyə ilə birbaşa sərhədinin olması idi. Ancaq birliyimiz-bərabərliyimiz qarşısında ağ bayraq qaldırdılar, arzuları gözlərində qaldı yağıların. Naxçıvanın hər yerindən – Nehrəmdən, Cəhridən, Culfadan, Ordubaddan hər kəs Sədərəyin müdafiəsinə axışdı. Rayonda bir dənə də olsun, ev boşalmadı, hər kəs yurdunu qorudu. Təəssüf doğuran hal isə silah-sursatımızın yoxluğu idi. Ən yaxşı silahımız təklülə ov tüfəngləri idi ki, o da 10 nəfərdən birində tapılardı, ya yox... 1992-ci ildə müharibənin ən qızğın vaxtında iki gün biz mövqelərdə acqarına döyüşdük, sonra Qazançı kəndindən yemək göndərə bildilər. Ağsaqqaldan gəncə, hər kəs səfərbər olmuşdu bir müqəddəs amal uğrunda. Oruc Abdullayev, Musa Əliyev, Oruc Səfərov yaşlarının 70-dən yuxarı olmasına rəğmən əldə silah döyüşə rəhbərlik edirdilər, daim mövqeləri yoxlayırdılar. Bu da, təbii ki, gənc nəslə örnək kimi onları Vətənin müdafiəsinə daha da ruhlandırırdı. Odlu silahı olmayanlar, hətta balta, yaba kimi vasitələrlə düşmənin top-tüfənginin qarşısına çıxırdı. Onu da xüsusilə qeyd etmək lazımdır ki, həmin dövrdə uzaqgörən siyasətçi Ulu Öndər Heydər Əliyevin Sədərəyin düşməndən qorunmasında böyük rolu oldu. Naxçıvanın hər yerindən buraya üz tutanların təşkilatlanmasını uğurla həyata keçirən Ümummilli Liderin bir neçə dəfə rayona gəlişi hər kəsi ruhlandırdı. Xatirimdədir, dahi şəxsiyyətlə 1990-cı ildə ilk dəfə Mədəniyyət Evində görüşümüz oldu, kişi-qadın – hər kəs o görüşdə iştirak edirdi. Dahi insanla söhbətimizdən sonra içimizdəki inam işığı daha da parladı. Ulu Öndər sonralar bir neçə dəfə Sədərəyə gəldi, sakinlərlə, döyüşçülərlə görüşdü, öz göstərişlərini verdi... Beləcə, Ümummilli Liderin yolgöstərənliyi sayəsində, birlik göstərərək torpaqlarımızı qoruyub saxladıq. 1992-ci il mayın 28-də Sədərək-Dilucu "Ümid" körpüsünün açılması ilə arzularımız, ümidlərimiz çiçək açdı, iki qardaşın vüsalı yurdumuza bərəkət, əmin-amanlıq gətirdi. Və 28 il sonra isə tarixi ədalət zəfər çaldı.



*Alınmaz qaladı, əyilməz vüqar*
*İgidlər, ərənlər oylağıdır o.*
*Geyinib şux libas olub bəxtiyar*
*Düşmənə ən ağır göz dağıdır o.*

Ulu Öndərin yoluna sədaqətin nəticəsində ərazi bütövlüyümüz təmin olundu. Bu gün qalib xalqın nümayəndələri kimi alnımız açıq, başımız dik şəkildə gəzirik...



1990-cı ilin yanvarın 17-də düşmənin Sədərəkdəki şərab zavodunu partlatmaq məqsədilə atdığı top mərmisi yaxınlıqdakı həyətə düşür və nəticədə, Elvin və Malik Nəsirov qardaşları rayonun ilk şəhidlərindən olurlar. Ataları ***Tofiq Nəsirov*** övladlarının şəhadətə yetmə xəbərini səngərdə düşmənlə üz-üzə döyüşdüyü zaman alır. Üzərindən 34 il keçsə də, hələ də körpə övladlarını itirmə anını unuda bilməyən qəhrəman eloğlumuz deyir ki, Malik və Elvin kimi, digər şəhidlərimizin müzəffər Ordumuz tərəfindən 44 gün və 23 saat ərzində qisasının alınması ona hədsiz qürur yaşadıb: – II Qarabağ müharibəsində düşmənin Gəncə şəhərinə atdığı raket zərbələrindən dünyasını dəyişən azyaşlıları görəndə illərdir, köksümü yaralayan o hadisə yenidən gözümün önündə canlandı. Lakin haqq nahaqqı üstələdi, günahsızların qanı yerdə qalmadı. 44 günün sonunda düşmən üzərində qazandığımız misilsiz Zəfər bütün şəhid ailələri kimi bizim də ağrı-acılarımıza məlhəm oldu. Şuşa alınanda evimizdə hər kəs sevincdən ağlayırdı. Fəxr edirik ki, Naxçıvanımızın, Sədərəyin mərd oğullarının da o böyük Qələbədə imzası vardır. Bax budur əsl Qələbə. Ötən günlərdə Rusiya sülhməramlılarının Qarabağı tərk etməsi və Qazaxın 4 kəndinin azad olunması isə möhtərəm Prezidentimizin siyasi iradəsinin növbəti təntənəsidir. Yaşasın Ulu Öndər vəsiyyətini yerinə yetirən Müzəffər Ali Baş Komandan! Yaşasın Azərbaycanın dönməz, məğrur əsgər-zabiti!

***Barıt qoxulu günlərdən bol bəhrəli illərə...***

Milli kimliyimizin açarı sayılan "Kitabi-Dədə Qorqud" dastanında el ağsaqqalı Qorqud ata Vətən, yurd sevgisi ilə coşub-daşan Oğuz övladlarına torpağın qiymətini izah edir: "Torpağın yiyəsi olmaq üçün iki şərt var. Bir odur ki, bu torpağı gərək əkib-becərəsən, o birisi odur ki, torpağı yağılardan qoruyasan. Əgər torpağı əkib-becərmədin qorumağa dəyməz, torpağı qoruya bilmədin əkib-becərməyə dəyməz".

Ulu babamızın min il öncəki nəsihəti sanki bugünkü Sədərək üçün deyilib. Mənfur düşmənə gözdağı olan alınmaz qala, fəth olunmaz zirvə sayılan bu elimizin övladları yurdu qorumaqla yanaşı, onu gülüstana çevirməyi də gözəl bacarırlar. Hər fəsildə bir başqa gözəlliyə bürünən rayon yazda daha böyük füsunkarlığı ilə bu yurdun insanlarına yaşamaq-yaratmaq əzmi aşılayır. Son illərdə ölkəmizdə aparılan iqtisadi siyasətin bəhrələri kimi, rayonda bütün sahələrdə infrastruktur quruculuğu aparılıb, yeni ailə təsərrüfatları yaradılıb, sahibkarlıq subyektləri qurulub, mağazalar açılıb, bir sözlə, insanların güzəranı xeyli yaxşılaşıb...

Sədərək Rayon Mədəniyyət Şöbəsinin mərkəzləşdirilmiş kitabxana sisteminin müdiri, ziyalı ***Kəmalə Əliyeva*** deyir ki, 1990-cı illərdə şərəf, ləyaqət dastanı yazan məğrur oğullar, onların övladları bu gün yurdumuzun bağrında güllər, çiçəklər açdırır. Ölkə başçısının reallaşdırdığı iqtisadi islahatların uğurlarını hər bir sakin öz həyatında hiss edir. Ulu Öndərin yadigarı, adını daşıyan Heydərabad qəsəbəsi başdan-başa dəyişilir, insanların rahatlığına xidmət edən abad yaşayış məntəqəsinə, inzibati mərkəzə çevrilir. Rayonumuzda adla deyilən, istehsal etdikləri məhsulları ölkəmizin hər yerini dolaşan, süfrələrin bəzəyinə çevrilən Mehparə Hüseynova, Nazirə Əliyeva, Yavər Hüseynov və digər təsərrüfatçıların əməyi, zəhməti güllər açır. Zəhmətkeş insanlar Qalib Ordumuza, qüdrətli dövlətimizə arxalanaraq, ötən əsrdə olduğu kimi yenə də düşmənə gözdağıdırlar: həm torpaqlarını göz bəbəyi kimi qorumaqla, həm də bu torpaqda qurub-yaratmaqla...

*"Arxası dağ olanın başı göylərə çatar", – deyiblər. Bu gün düşmənlə bir addımlıqda yaşayıb-yaradan məğrur sədərəklilərin arxasında dağ kimi əzəmətli, vüqarlı bütöv Azərbaycanın Qalib, məğrur əsgəri, zabiti dayanıb. Rayon sakinləri ürəklərində alovlanan Vətən eşqinin, yurd sevgisinin verdiyi böyük mənəvi, fiziki güc sayəsində bölgənin inkişafına töhfələr vermək əzmiylə çalışırlar. 100 yaşlı muxtariyyətin 34 illik qəhrəmanlıq, şücaət, zəfər qalasının inkişaf, tərəqqi ətirli neçə belə onilliklər fəth etməsi diləyi ilə...*

**Nigar ƏSGƏROVA**
***Naxçıvan Dövlət Universitetinin tələbəsi***

*Məqalə "Şərq qapısı" qəzetinin elan etdiyi "Naxçıvan 100 ildə" yaradıcılıq müsabiqəsinə təqdim etmək üçündür*



*"Şərq qapısı" qəzeti bu adla yeni layihəyə start verib. Belə ki, qəzetimizin nömrələrində şəhid analarının övladları haqqında xatirələri yer alacaq. 44 cümləyə sığışdırılacaq hər bir xatirənin şəhidlərimizə böyük sevgi və ehtiram kimi oxucularımız tərəfindən də maraqla qarşılanacağına əminliyimizi bildirir, şəhidlərimizin ruhu qarşısında baş əyir, belə igid oğullar böyütmüş analarımıza minnətdarlığımızı ifadə edirik. Bugünkü nömrəmizdə Şərur rayonunun Xanlıqlar kəndindən olan şəhidimiz Lətif Əliyevin anası Nigar Əliyevanın, Babək rayonunun Babək şəhərindən olan şəhidimiz Ümid Novruzlunun anası Kimya Novruzovanın və Babək rayonunun Babək şəhərindən olan şəhidimiz Rasim Ramazanovun anası Tərlan Ramazanovanın övladları haqqında xatirələri yer alıb.*

# 100 ilin qəhrəmanları

## Lətif Oruc oğlu Əliyev

*(15.08.1995-27.10.2020)*

### İncə ruhlu şəhidimiz





Mən bir şəhid anası kimi oğlumla fəxr edirəm. Lətif o qədər incə ruhlu bir bala idi ki... Məndən ayrı dura bilmirdi. Deyirdim ki, ay Lətif, bəlkə, iş elə gətirdi ki, çıxıb başqa yerə getdin. Mənsiz necə yaşayacaqsan? Bir gün gəldi dedi ki, ana, mən hərbçi olmaq istəyirəm. Dedim ki, oğul, özün bilərsən. Niyyətin hara, mənzilin ora. Qəbul olundu, iki ay kurs keçdi. Çox sevirdi hərbini, inanın ki, mən onu ömrüm boyu belə sevincli görməmişdim.

Altı ay xidmətdə oldu Lətif. Könüllü olaraq xüsusi təyinatlı qrupu seçmişdi. Müharibə başlayandan sonra zəng vurdu ki, ana, bizi Bakıya göndərirlər. Mən o zamana qədər müharibəni dərk edə bilmirdim. Dedi ki, ana, Gəncədə hadisə olub. Bizi göndərirlər oraları təmizləməyə. Uçub dağılan əraziləri düzəldəcəyik. Demə, oğlum məni sakitləşdirirmiş. Xəstə olduğum üçün istəmirdi mən narahat olam.



Səhərisi gəlinə zəng vurdu Lətif (qardaşının yoldaşına). Dedi ki, bizi Beyləqana gətiriblər. Sonra bölünəcəyik. Mənə zəng vurmayın. Özüm sizə zəng vuracağam. Aradan iki gün keçdi. Zəng vurdu ki, meşədəyik, narahat olmayın, burada gözləyirik. Üç gün keçdi, Lətif yenə zəng vurdu, mənimlə danışdı. Çox da yaxşı danışırdı. Sonra dedi ki, ana, telefonu ver bacıma, onunla da danışım. Bacısına deyib ki, burada vəziyyət çox pisdi, biz mühasirədəyik, anama demə. Yaxşı ki, mühasirədən sağ-salamat çıxırlar.

Sonuncu dəfəki zəngində dediklərini heç unuda bilmirəm. Dedi ki, ana, siz orada məndən ötrü narahat olanda mən də hiss edirəm. Narahat olmağa dəyməz. Yeməyimiz, içməyimiz yerində. Demək istəyirəm ki, heç bir çətinliyimiz yoxdur. Tezliklə istədiyimizi edəcəyik. Hamıya salam de. Bir az rahatladım. Sonra əlaqə kəsildi. Günlərlə Lətifdən zəng gəlmədi. Balamdan xəbər ala bilmədik. Günlər sonra balamın şəhid xəbəri gəldi. Oğlumun da, digər şəhidlərimizin də ruhları şad olsun.

## Ümid Bahadur oğlu Novruzlu

*07.06.1992-07.11.2020*

### Şəhidlərə ölüm yoxdur Vətəndə



Ümid iki bacının bir qardaşı idi. Balaca vaxtından çox hərəkətli idi. Onu əlimizdə saxlayıb böyüdürdük. O vaxt atası Rusiyada işləyirdi. Ümid nə istəyirdi, onu da alırdı. Elə hey deyirdim ki, ay Bahadur, bunu çox ərköyün böyüdürsən. Cavab verirdi ki, uşaqdır, qoy hər şeyi olsun.

Ümiddə hərbiyə meyil məktəbdə oxuduğu vaxtlar yaranmışdı. Amma biz icazə vermədik. Böyüdükdən sonra Daxili Qoşunlarda işə başladı. Üç ili burada işlədi. Sonra polis orqanlarına keçdi. Burada da işləmək istəmirdi. Oradan hərbiyə getdi. Ümid çox mehriban idi. Həm bizimlə, həm ailəsilə, həm də bütün dost-tanışları, qohumları ilə.



Döyüşə getməmişdən bir gün əvvəl yoldaşı və uşaqları ilə birlikdə gəzməyə gediblər. Axşam saat 9-da yoldaşına zəng vurub ki, uşaqları hazırla gəzməyə aparacağam. Həmin gün uşaqlar nə deyibsə, Ümid də onu edib.

Mən müalicə üçün Bakı şəhərində idim. Telefonla tez-tez danışırdıq. Həmişə deyirdi ki, məni müharibəyə aparmayacaqlar. Mən onun müharibəyə getməyini çox gec bildim. O, Bakıya çatanda bildim ki, balam müharibəyə gedir. Zəng vurdu, dedim ki, Ümid, haradasansa de, gəlim səni görüm. Cavab verdi ki, ana, yerim məlum olsun, deyəcəyəm. Son sözü o oldu ki, özünüzə yaxşı baxın. Dedim ki, oğul, getmə. Sən arxada iki bala, gəlin qoymusan. Onları düşün ha, Ümid. Aman günüdür. Dedim ki, bəs məni Naxçıvana aparacaqdın? Cavab verdi ki, ana, gəlib aparacağam. Amma elə olmadı. Demə, Ümid mənə təsəlli verirmiş. Oradan birbaşa müharibəyə gedib. Yoldaşlarının dediyinə görə, çox igidliklər göstərib.Ümidi mən Naxçıvana gətirdim, həm də bayrağa sarılmış tabutda. Təyyarədə mən qabaqda, Ümid isə təyyarənin arxasında Naxçıvana gəldik.



İndi gözümüz qalıb qapıda. Axşamçağı saat altı olan kimi qapıya baxıram. Elə bil Ümidin qoxsu evə dolur. Ümiddən bizə qalan onun iki gül balası, şəkilləri, bir də məzar daşıdır. Nə deyim? Vətən sağ olsun!

## Rasim İsmayıl oğlu Ramazanov

*(26.07.1998-19.10.2020)*

### İgid və qorxmaz Rasim





Çox mehriban uşaq idi. Həm qohumlara, həm də qonşulara qarşı. Balaca vaxtı şıltaq idi. Heç özünə söz götürməzdi. Həm də çox qorxmaz idi. Heç bir çətinlikdən qorxmurdu.

Uşaqlıqdan hərbiyə çox meyilli idi. Balaca qardaşı hərbi liseydə təhsil alırdı. Ona çox həvəslənirdi. Bir gün həyətdə işləyirdim. Gəldi ki, ana, mən sənədlərimi hərbiyə hazırlamışam. Amma siz sənədlərə imza çəkməlisiniz. Dedim ki, oğul, qardaşın hərbidədir. Heç olmasa, sən mənim yanımda qal. Dedi ki, ana, mənim sinif yoldaşlarımın hər biri hərbiyə gedib. Mən də gedəcəyəm. Mən də israr etdim ki, olmaz. Ancaq inadını yeritdi. Atası sənədlərini imzaladı.

Sonuncu dəfə 18 oktyabrda danışdım oğlumla. Danışanda nə dedimsə, dedi ki, ana, siz yaxşı olun. Hər zaman Rasimlə danışanda onu xeyli əzizləyərdim. Deyirdim ki, ehtiyatlı ol. Bütün qohum-əqrəba sənin sağ-salamat qayıtmağını gözləyir. Sonuncu dəfə danışanda Rasimin əmisi də bizdə idi. Onun yanında utandım. Balamı əzizləmədim. Amma indi çox peşmanam. Peşmanam ki, kaş sonuncu dəfə balamı əzizləyərdim. Onu əzizləmədiyim içimdə bir dərd kimi qalıb. Sadəcə, dedim ki, bu müharibədir, heç kimə baxmır. Elə dayanmadan deyirdi ki, siz yaxşı olun. Mən də deyirdim ki, ay oğul, biz evdəyik. Bizə nə olacaq ki?



Səhəri tezdən yuxudan duranda o qədər rahat idim ki. Axşam çox qəşəng danışmışdı Rasim. Kim soruşurdu deyirdim axşam Rasim danışıb. Arxayınam, yaxşıdır. Amma həmin vaxt mən yanılmışam. Demə, 18-dən 19-na keçən gecə Rasim şəhid olub. Beş gün biz heç nə bilmədik.

Bizimlə danışdıqdan sonra əmisi ilə də danışdı. Əmisinə deyib ki, atama de haqqını mənə halal etsin, çətin tapşırığa gedirik, bilmək olmaz. Mənim də, atasının da haqqı Rasimə halal olsun!

# Yaz-yay-qış turizminin ideal məkanı



## “Şərq qapısı” qəzetinin fotosərgiləri turizmin təbliği baxımından da mühüm əhəmiyyət kəsb edir

Şərqin qapısı Naxçıvan yaz-yay-qış turizminin ideal məkanı kimi yerli və xarici turistlərin sevərək ziyarət etdiyi diyardır. Yerləşdiyi coğrafi mövqeyi, nadir fauna və florası, zəngin tarixi-mədəni irsi, təbii müalicə mərkəzləri, mineral suları, ləziz mətbəxi, yüksək qonaqpərvərlik ənənələri muxtar respublika turizminin inkişafının əsasını təşkil edir.

Gözəl təbiətə malik Naxçıvanda tarixi-mədəni irsin tanıdılması istiqamətində həyata keçirilən tədbirlər, görülən abadlıq-quruculuq işləri buraya gələn turistlərin sayını ilbəil artırıb. Bu gün muxtar respublikanın ən ucqar kəndlərində – Biçənək, Kükü, Ağbulaq, Nursu, Dırnıs, Nəsirvaz, Bist, Tivi, Pəzməri, Şahbulaq və başqa yaşayış məntəqələrində yaradılan əlverişli şərait turistlərin bu yerləri rahatlıqla görməsinə və gəzməsinə imkan verir. Şahbuz rayonunun Ağbulaq kəndi, Ordubad rayonunun Dırnıs, Pəzməri, Vənənd və Culfa rayonunun Ləkətağ kəndlərində ənənəvi turizm növlərinin inkişaf etdirilməsi ilə yanaşı, yeni turizm istiqamətləri formalaşdırılıb.

Möminə xatın türbəsi, Xan sarayı, “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi, Nuh Peyğəmbərin məzarüstü türbəsi, İmamzadə kompleksi, Came məscidi, Naxçıvanqala, Yusif Küseyir oğlu türbəsi, Bəhruz Kəngərli Muzeyi, Naxçıvan buzxanası, Şərur rayonunun Yengicə kəndindəki Şərq hamamı, Culfa rayonundakı Xanəgah Abidə Kompleksi, Əlincəqala, Gülüstan türbəsi, Qazançı körpüsü, Ordubad rayonundakı Aza körpüsü, Qeysəriyyə, Kəngərli rayonundakı Qarabağlar Türbə Kompleksi, Şahtaxtı kəndindəki Şərq hamamı, Babək rayonundakı Nehrəm imamzadəsi və digər tarixi-mədəni abidələr bu diyara turistləri cəlb edən digər səbəbdir.

Müalicə turizminin inkişafında dünyanın bənzərsiz təbii şəfa mənbəyi olan Duzdağ Fizioterapiya Mərkəzi yaz-qış qonaqlarını qəbul edir. Tənəffüs yolları xəstəliklərindən əziyyət çəkən xəstələr burada şəfa tapa bilirlər. “Darıdağ” Arsenli Su Müalicəxanası da müalicə turizmi sahəsində böyük imkanlara malikdir. Qədim inancları, möcüzəvi sirləri və əfsanələri özündə yaşadan “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksi, həmçinin pirlər, imamzadələr, məscidlər qonaqların ziyarətgahına çevrilib. Əlincəqala Perudakı Machu Picchu qala şəhəri ilə müqayisə olunmaqla turistləri heyran edir.

Naxçıvanın özünəməxsus və zəngin mətbəx nümunələri də turistləri cəlb edir. Mövcud turizm obyektləri muxtar respublikada hotel biznesinin genişləndirilməsinə, turistlərin rahatlığının təmin olunmasına şərait yaradır. Müasir standartlara cavab verən nəqliyyat infrastrukturu, taksi fəaliyyəti göstərən sürücülərin məlumatlılığının artırılması, turizm potensiallı obyektlərə mövsümi marşrutların fəaliyyətinin təmin edilməsi, dağ cığırlarının müəyyənləşdirilməsi və qiymətləndirilməsi, Naxçıvan Muxtar Respublikasına mediaturların təşkili bu istiqamətdə görülən işlərin davamıdır. Şahbuz rayonunun Gurbulaq, Ballıdüz, Ordubad rayonunun Göy-göl, Pəzməri və Çimənək şəlalələri əsrarəngiz mənzərələri ilə unikal turistik məkanlardır.

Turizm sahəsində kadr hazırlığı işi də diqqətdə saxlanılır. Turizm və otelçilik ixtisası üzrə təhsil alan tələbələrin muxtar respublika muzeylərinə, tarixi abidələrə, müalicə mərkəzlərinə və xüsusi qorunan təbiət ərazilərinə ekskursiyaları, hotel və turoperatorluqlarda təcrübə keçmələri onların bilik və təcrübələrinin artırılmasında mühüm rol oynayır.



Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə qəbul edilmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı” muxtar respublikada digər sahələr kimi turizmin inkişafı üçün də yeni mərhələnin əsasını təşkil edir. Ölkə başçısı cənab İlham Əliyevin 2024-cü il 21 fevral tarixli Azərbaycanın tarixi və mədəni irsinin nadir nümunələrindən olan Ordubad şəhərinin ərazisində yerləşən abidələrin daha yaxşı qorunması, təbliği və idarə olunmasının təkmilləşdirilməsi məqsədilə imzaladığı “Ordubad” Dövlət Tarix-Mədəniyyət Qoruğunun yaradılması haqqında” Sərəncam isə gələcəkdə Ordubadda turizmin inkişafına töhfə verəcək. Bu yaxınlarda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi ilə Bakı şəhərindəki Beynəlxalq Muğam Mərkəzində keçirilən “Naxçıvan fotolarda” adlı fotosərgi, eləcə də Türkiyə Respublikasının İğdır şəhərində “Şərq qapısı” qəzetinin fotoqraflarının çəkdikləri muxtar respublikanın müxtəlif gəzməli-görməli yerlərinin fotolarının təqdim edildiyi eyniadlı sərgi Naxçıvanın turizm potensialının geniş arenada təbliği baxımından mühüm əhəmiyyət kəsb etdi.

Turizm sektorunun inkişafı ölkə iqtisadiyyatında mühüm yer tutur. Odur ki, yuxarıda adıçəkilən müvafiq Dövlət Proqramının icrası gələcəkdə muxtar respublika turizminin inkişafına daha geniş perspektivlər açacaq.

**Güntac ŞAHMƏMMƏDLİ**









*Qədim Naxçıvan 100 ildə*

# Muxtariyyətimizin 100 illik tarixinə “Şərq qapısı”nın fotoşəkilləri ilə qısaca baxış…

*Min illər boyu qəhrəmanlığı, mübarizliyi ilə seçilən, Azərbaycan ədəbiyyatına, tarixinə verdiyi töhfələrlə öyünən Naxçıvanımızın muxtariyyəti 100 yaşını qeyd edir. Bu, böyük tarixi nailiyyət olmaqla bərabər həm də hər birimiz üçün qürur yeri və iftixar mənbəyidir.*

100 illik muxtariyyətimiz böyük tarixi inkişaf yolu keçib. Bu yolda Vətəni qoruyan, ona dayaq olan insanların – doğma naxçıvanlıların fəaliyyəti isə şərəfli tariximizin qəhrəmanlıq səhifələridir. Nə xoşbəxt xalqıq ki uzun illər bədnam düşmənlərə, yağılara qarşı apardığımız mücadilələr, o cümlədən tarixi situasiyalar qarşısında gətirdiyimiz duruş, göstərdiyimiz sarsılmaz inam bu gün mətbuat tariximizin səhifələrində də qorunub yaşadılır.

Hər birimizə məlumdur ki, Azərbaycan mətbuat tarixində böyük məktəb yaratmış qəzetlərdən biri də “Şərq qapısı” qəzetidir. “Əkinçi” qəzetinin xələfi, onlarla mətbuat orqanın sələfi olan bu qəzet yüz ildən artıqdır ki, oxucularının görüşünə gəlir. Fəaliyyətə başladığı gündən indiyə kimi elmi-siyasi, publisistik, o cümlədən ədəbi-bədii yazıların, məqalələrin salnaməyə çevrilməsində “Şərq qapısı”nın müstəsna xidmətləri vardır. Onların hər biri böyük tədqiqat mənbəyidir. Qəzetimizin oxucuları dərc edilən materiallarla bərabər, ağ-qara fotoşəkillərlə də çox maraqlı informasiyalar öyrəniblər. Jurnalistlərimiz və qəzetimizin operativ fotomüxbirləri bu yolla tarixə işıq tutublar. Bu fotoşəkilləri araşdıranda görürük ki, onların ən maraqlısı elə tarixlə ayaqlaşan, keçmişlərdən xəbər verən fotoşəkillərdir. Düzdür, sözügedən fotomənbələrin hər biri, necə deyərlər, tariximizi özündə ehtiva edir. Ancaq əksər şəkillər də var ki, onları görüb keçmək mümkün deyil. Elə bu yazımızda da “Şərq qapısı” qəzetində özünə yer almış bəzi fotoşəkilləri şərh etməklə oxucularımızın görüşünə gəlmişik…

Qeyd etdiyimiz kimi, uzun illər boyu “Şərq qapısı” qəzeti muxtar diyarımızın ictimai-siyasi həyatının işıqlandırılmasında müstəsna rol oynayıb. İlk vaxtlar sahə nəşri kimi mətbuatımıza ayaq açan bu qocaman mətbuat orqanı qısa zaman ərzində naxçıvanlı ziyalıların, əmək qəhrəmanlarının, zəhmət adamlarının əsas xitabət kürsüsünə çevrilib. Muxtar diyarımızın hər bir bölgəsindən gələn oxucu məktubları, müxtəlif mövzularda qələmə alınmış yazıların, müsahibələrin qəzetdə dərc edilməsi dövrün real təsvirini bu gün gözlərimiz qarşısında canlandırır. Necə deyərlər, dünənimizdən bu günümüzə soraq verir…

## Yaylaq yollarında



Qəzetin 1960-cı il iyul ayının 19-da nəşr edilən bir sayında verilmiş fotoşəklə baxıram… Çiynində ağ ipək şal, əynində çit paltar, saçı hörüklü bir ağbirçək xanım at belində dayanıb üfüqü seyr edir. Arxada əzəmətlə dayanan Haçadağ və atın ayaqlarının bənd olduğu yerdən Haçadağın ətəklərinə qədər açılmış sanki ruzi-bərəkət dolu süfrəni xatırladan geniş taxıl zəmiləri, bostanlar, bağ-bağatlar… Sözügedən şəklin aşağı hissəsində isə belə yazılıb: “Culfa rayonundakı Əzizbəyov adına kolxozun sədri Gülan Muradova yaylaq yollarında”.

Yalnız muxtariyyət tarixinin səhifələrinə yox, elə “Şərq qapısı” qəzetinin ədəbi inkişaf yoluna baxanda da yurdumuzun dünəni gözümüzdə canlanır. Məcmuədə yer alan hər bir fotoşəkil, onun çəkildiyi dövr insanı düşündürür. Düzdür, bu zamana qədər qəzetdə yer alan fotoşəkillərdən çox az danışılıb, bəlkə də, heç bu barədə danışılmayıb. Ancaq bəzi fotolarla maraqlananda gördük ki, bu ağ-qara rənglərin yaratdığı xatirələr necə rəngarəng illərə işıq tutur…

## Tariximizin, ədəbiyyatımızın, incəsənətimizin böyükləri...



Qəzetin böyük bəstəkarımız Üzeyir bəy Hacıbəyovun unikal fotoşəklinin də yer aldığı nömrələrinin birində “Zəmanəmizin böyük bəstəkarı” adlı məqalə oxuculara təqdim edilib. Sərlövhənin aşağı hissəsində isə yazılıb: “Üzeyir Hacıbəyovun vəfatının ikinci ildönümü”. Bu faktdan yola çıxaraq deyirik ki, qəzetin bu nömrəsi 1950-ci ilə, yəni Üzeyir bəyin vəfatından iki il sonraya aiddir.

Xalq şairimiz Səməd Vurğunun vəfatı ilə əlaqədar olaraq 1956-cı il 21 noyabrda dərc edilmiş məqalə və şairin nadir fotoşəkli, həmçinin yurdumuzun zəhmətsevər insanlarının, əmək qəhrəmanlarının fotoşəkilləri, o cümlədən Sovet İttifaqı Qəhrəmanı, “Mixaylo” ləqəbli Mehdi Hüseynzadəyə “Uzaq sahillərdə” filmində həyat verən aktyor Nodar Şaşıqoğlunun Naxçıvanda olarkən çəkilmiş fotoşəkli də qəzetin 27 fevral 1969-cu ildə dərc edilmiş sayında mövcuddur. Bunların hər biri “Şərq qapısı” qəzetinin əvəzsiz fotomənbələridir.

103 yaşlı mətbuat orqanı milli mədəniyyətimizin paytaxtı, şairlər yurdu, poeziya diyarı Şuşa şəhərindən də soraq verir bizə. Qəzetin 1975-ci il 23 mart tarixli sayında Şuşa Şərq musiqi alətləri fabrikindən də maraqlı fotoşəkil vardır. Novruz bayramı ərəfəsində çəkilmiş bu fotoşəkildə bir-birinin ardınca inci kimi düzülmüş qədim musiqi alətimiz olan tarı görürük. Şəkildəki şəxslərin kim olduğu haqqında bir məlumat verilməsə də, musiqidən, poeziyadan hali olduqları hiss edilir…









## Ədəbiyyat-əbədi həyat naminə

Türkmənçay və Gülüstan müqavilələrinin imzalanmasından sonra ərazi bütövlüyü pozulan Azərbaycanımızın bir çox tarixi torpaqları bir-birindən ayrıldı. Bu qanlı-qadalı müqavilələr Vətənimizə həm maddi, həm mənəvi cəhətdən itkilər gətirdi. Həmçinin Qafqaz cəbhəsində baş verən müharibələri yekunlaşdıran bu müqavilələr Naxçıvan torpağını da Azərbaycandan qoparıb muxtar respublika halına saldı. Daha dəqiq desək, bu yurdun insanlarını blokada şəraitində yaşamağa məcbur etdi. Bu hadisələrin fonunda baş verən tarixi proseslər, o cümlədən Osmanlı imperiyasının süqutu və Türkiyə Cümhuriyyətinin qurulması muxtariyyət məsələsinin də gündəmə gəlməsinə gətirib çıxardı. Və bildiyimiz kimi, 1924-cü il 9 fevralda böyük tarixi nailiyyət əldə edildi. Uzun sürən danışıqların nəticəsində Naxçıvan Muxtar Respublikası yarandı…

Naxçıvan Muxtar Respublikasının 100 illik tarixi həm də naxçıvanlıların keçəcəyi, keçməyə məcbur olduğu böyük sınaq idi. Çünki muxtariyyətin yaradılmasından sonra yalnız Naxçıvanın yox, bütövlükdə, Azərbaycanın həyatında böyük siyasi hadisələr baş verdi. 1920-ci ilin əvvəllərindən etibarən sovet Rusiyası tərəfindən bünövrəsi qoyulan kollektivləşdirmə siyasəti həmin ilin ikinci yarısından sonra Vətənimizin hər yerində geniş şəkildə yayılmağa başladı. Başda Naxçıvan Muxtar Respublikası olmaqla bir çox sənaye və aqrar bölgələrimiz bu siyasətin qurbanına çevrildi, kütləvi narazılıqlar baş qaldırdı. Ardınca siyasi repressiyaların baş verdiyi 30-cu illərin tariximizə qədəm qoyması bütün siyasi təsirlərin səmtini dəyişdi. Başda görkəmli şair və dramaturq Hüseyn Cavid olmaqla Naxçıvanda yazıb-yaradan bir çox yazıçı və şairlər Stalin repressiyasının qurbanı oldu. Bu hadisə, ümumilikdə, ədəbiyyatımıza və mətbuatımıza böyük durğunluq gətirdi. Sözügedən fəlakətdən xilas olmuş bir sıra ziyalılarımız, qələmlərinin qüdrəti ilə insanlar arasında ictimai fikir formalaşdırmaq gücündə olan ədəbiyyat nümayəndələrimiz Vətənimizin hər yerinə qol-qanad gərdilər. Ədəbiyyatın bağrında boş qalmış yerləri doldurmaq üçün böyük güc və iradə mübarizəsi başladı. Bu istiqamətdə “Şərq qapısı” qəzetinin ilk redaktoru olmuş Əvər Sadıq, Xalq şairlərimiz Rəsul Rza, Nəriman Həsənzadə, Xalq yazıçılarımız Ənvər Məmmədxanlı, Mehdi Hüseyn və digərləri böyük səy göstərdilər. Onların böyük əksəriyyəti naxçıvanlı ziyalılarla görüşməklə muxtar respublikamızda ictimai fikrin oyanması istiqamətində böyük qətiyyət və əzm nümayiş etdirdilər. Elə söylədiyimiz bu faktı “Şərq qapısı” qəzetinin 1969-cu il yanvar saylarından birində verilmiş fotoşəkil də təsdiq edir. Fotoşəkildə ədəbi mühitimizin üç böyük şairi, ziya sahibi var. Belə ki, soldan birinci şəxs Xalq şairimiz Nəriman Həsənzadədir. Ortadakı Xalq yazıçımız Mehdi Hüseyn və yanındakı (solda) isə Naxçıvan ədəbi mühitinin görkəmli nümayəndələrindən olan Hüseyn Razidir.

# Bunu bilirdinizmi?

Naxçıvanın Azərbaycanın əsas ərazisindən ayrı düşməsinə baxmayaraq, muxtar respublikanın insanları, xüsusən də ziyalıları Azərbaycan ictimai və mədəni mühitindən ayrı düşmədilər. Görkəmli ədəbiyyat xadimlərimizin, jurnalistlərimizin paytaxt Bakı daxil olmaqla ölkəmizin istənilən bölgəsi ilə əlaqə saxlaması, bir az əvvəl də qeyd etdiyimiz kimi, maraqlı oxucu məktublarının, ziyalı yanaşmalarının qəbul edilməsi və onların böyük incəliklə, diqqətlə “Şərq qapısı” qəzetində işıqlandırılması sadaladıqlarımızı bir daha təsdiq edir. Hətta araşdırarkən elə mövzulara və fotoşəkillərə rast gəlirsən ki, heyrətlənməmək mümkün deyil. Elə bu fotoşəkildə olduğu kimi: “Şərq qapısı” qəzetinin 1962-ci ildə iyun ayı ərzində nəşr olunan saylarının birində işıqlandırılmış bu ağ-qara fotoşəkildə helikopterin enmə anının görüntüsü əks olunub. Helikopterin arxa tərəfində isə paytaxtımızın Azadlıq meydanı ərazisində yerləşən tarixi Hökumət Evini görürük. Maraqlı tərəfi isə fotoşəklə verilən şərhdir. Belə ki, şəklin aşağı hissəsində yazılıb: “Bakı ilə Sumqayıt arasında taksi-vertolyot işləyir. Şəkildəki vertolyot Bakıda yerə enərkən”.

Diqqətə çatdırdığımız kimi, muxtar respublikamızın ölkənin əsas ərazisindən ayrı olması onun ictimai-siyasi həyatına mənfi təsir göstərsə də, mədəniyyətinin və mətbuat əlaqələrinin formalaşmasını, necə deyərlər, inkişafdan saxlaya bilməyib. Ötən əsrin 60-cı illərində, paytaxt Bakıda yeni sənaye iqtisadiyyatının formalaşdığı bir zamanda, məlumatda da deyildiyi kimi, “vertolyot-taksi”lərin xəbərinin belə maraqlı fotoşəkillə, oxunaqlı tərzdə verilməsi qəzetin üzərinə götürdüyü missiyanı uğurla yerinə yetirməsidir. Hətta bu elə nadir xəbərdir və əvəzsiz fotomənbədir ki, günümüzdə tarixi faktların, məlumatların sosial şəbəkədə olmasına baxmayaraq, bu barədə axtarış edəndə internetdə heç bir məlumata rast gəlinmir. Deyəsən, bu fakt sırf “Şərq qapısı” qəzetinə xasdır…



*Əziz oxucularımız, bu yazımızda “Şərq qapısı” qəzetinin 1950-1975-ci illər arası nəşr edilmiş saylarında işıqlandırılan yüzlərlə, bəlkə də, minlərlə fotoşəkildən, sadəcə, bir neçəsini sizlərə təqdim etdik. Ardı isə növbəti saylarımızda...*

**Məcid RƏŞADƏTOĞLU**

### Memar Əcəmi– 900

# Əcəminin tənha mirvarisi

Naxçıvan şəhərinin sakit küçələrinin birində, gözdənuzaq sanki dənizin dibinə düşmüş bir mirvarini xatırlayaq. Memar Əcəminin tənha mirvarisi – Yusif ibn Küseyir və yaxud da digər adı ilə desək: Atababa türbəsi. Türbəyə baxdıqda hər şeydən uzaq, neçə illər xidmət edib yorulan bir şeyxin məzarı ilə yanaşı, onu yaradan qocaman Əcəminin nəfəsi hiss olunur. Demək olar ki, naxçıvanlılar üçün bu qeyri-adi bir tikili deyil. Az qala min ildir ki, böyük memarın bu mirvarisi həmin küçənin bir parçasına çevrilib. Sanki Əcəmi də şeyx üçün həmin küçədə bir ev düzəldib, illər boyu dəyişilməyən tək qonşunun tək evini tikib.

Ətraf nisbətən sakitlikdir. Küçədən avtomobil səsləri, tək-tük insanların söhbətləri, küləyin səsi və yarpaqların xışıltısı eşidilir. Abidə görkəmcə çox hündür olmasa da, özündə böyük bir tarixi gizlədir. Memar Əcəminin bu türbəsi bizi kitablarda oxuduğumuz Atabəylər dövrünə səyahətə aparır. Ehtişamlı tarixi, mistik tikililərin, qüdrətli dövlətin yadigarını uzaq ellərə səs salan, memarlara, xaqanlara ilham verən bu abidənin timsalında səssizcə seyr edirəm. Bir də öz memarlıq məktəbini yaradan, bütün Şərqdə özündən sonra böyük incilər yadigar qoyan Əcəmi Naxçıvaninin möhtəşəm istedadının, əzəmətli yaradıcılıq enerjisinin, heyrətamiz nəqqaşlıq qabiliyyətinin mistikasını düşünürəm.

Əcəminin əsərlərini üzərlərinə həkk etdiyi Şərq motivləri, həndəsi ornamentlər və yazılar birləşdirir. Türbənin çoxəsrlik divarlarına həkk olunmuş naxışlara toxunuram. Gözüm əlimin üstünə – dəri üzərindəki cizgilərə sataşır. Xəyalımda Memar Əcəminin böyük tikililəri yaradarkən əlinin üzərindəki qırışlar və siması canlanır. Şübhəsiz ki, bu mirvarinin hər qarışında, hər naxışında, hər kiçik elementində onun kənarlarına qırış düşmüş gözlərinin, daşlarla işləməkdən, bəlkə də, cadar-cadar olmuş əllərinin izləri var. Ona görə də bu izləri əsrlərdir, özündə yaşadan abidə qoca memarın Günəşdən yanmış simasını da gözlərim önündə canlandırır. Haradan bilmək olar, bəlkə də, bu iç-içə keçirilmiş ulduz naxışları göydəki ulduzların türbənin divarlarındakı əksidir. Bu bənzətmələrin sayını daha çox artırmaq olar, əslində.

Türbənin aşağı hissələrində, ilk baxışda görülməsi mümkün olan, yuxarıya qalxdıqca quruyan bir rütubət var. Düzünə qalsa, abidəyə son dəfə 5 il əvvəl də gəlmişdim, onda hələ bərpa işləri aparılmamışdı. Üzərindəki yazılar və naxışlar çətin seçilirdi. İndi isə türbə nisbətən öz qədimliyindən də uzaqlaşıb. Türbənin yanında dolaşaraq bir tərəfdən əlimdə mobil telefon türbənin üzərindəki yazıların tərcüməsini axtarıb oxuyur, bir tərəfdən də gəlib keçənlərin qəribə baxışları ilə süzülürdüm. Elə bil neçə ildən sonra bu türbəni ziyarət edən tək mən idim. Gözüm isə türbənin üzərindəki naxışlarda və kufi xətti ilə yazılmış “Əcəmi ibn Əbubəkr Naxçıvani” yazısında idi.

Türbəni ziyarət üçün həyat yoldaşı ilə gələn ortayaşlı kişiylə bu abidə haqqında, onun bərpa işlərindən əvvəlki vəziyyətindən və tarixindən danışdıq. Türbənin içərisinə daxil oluruq. Bu sanki zamanda səyahətdir: türbənin tikildiyi dövrə səyahət edirik. Bişmiş kərpiclə işlənmiş günbəz formalı tavan və məzarı göstərmək üçün nəzərdə tutulan ortadakı balaca şüşə pəncərə, divarlarda isə Memar Əcəminin portreti, türbənin tarixinin əks olunduğu fotolar və türbənin üzərindəki yazıların tərcüməsi var. Türbənin ilk fotolarına nəzər saldıqda böyük bir hasar və darvazanın olduğu görünür. Fotonun altında isə yazılıb: “Şəkildəki darvaza və hasar hazırda yoxdur”. Əvvəl Möminə xatın türbəsinin də ətrafında tikililər var idi. Amma, əfsus ki, dövrümüzə qədər heç biri gəlib çıxmayıb. Bu fotolara baxdıqca bunun türbənin ilk bərpası olmadığını görürük. Bəlkə də, qarşıda onu çox təmirlər gözləyir. Yeniləndikcə hər dəfə tarixi məğlub edir, lakin öz qədimliyini və Əcəminin əsəri olduğunu uzaqdan da özünün hər bir tamaşaçısına hiss etdirir, aşılayır. Bu onun yaradıcısının istedad və qüdrətinin təcəssümü və bəlkə də, ən böyük mükafatıdır.

Türbədən ayrılıram. Görəsən, gələcəkdə dahi memarın tənha mirvarisini daha nə kimi macəralar gözləyir. Daha neçə yüz illəri geridə qoyacaq? Tarixin ruzigarına sinə gərib öz ecazkarlığından heç nə itirməyən bu abidə daha neçə nəsli qarşılayıb yola salacaq? Daha neçə əsr qüdrətli Atabəylərin varlığından danışacaq? Cavabsız suallardır.

Türbəni Memar Əcəminin tənha mirvarisi adlandırmağıma baxmayın. O, tənha olsa da, peşəkar bir memarın dəyərli şəhərinin tənha mirvarisidir. 5 minillik şəhərin 900 yaşlı mirvarisi...

**Rafiq TƏHMƏZ**



## Erkən nikaha yox deyək!

Şərur Rayon İcra Hakimiyyətinin başçısı yanında yaradılmış gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq komissiyasının iclası keçirilib. İclasda müvafiq komissiyanın əsas iş psinsiplərindən biri olan erkən nikahın qarşısının alınması ilə bağlı geniş müzakirə aparılıb.

Tədbir başlanmazdan əvvəl Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Şərur Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Erkən nikaha yox deyək!” mövzusunda keçirilən maarifləndirici tədbiri giriş sözü ilə rayon İcra Hakimiyyəti başçısının müavini Aysel Zeynalabdinova açaraq müasir dövrümüzün ən aktual problemlərindən biri olan erkən nikahın gənclərdə yaratdığı fiziki və psixoloji fəsadlarla yanaşı, təhsildən yayınma və digər hüquq pozuntuları barədə məlumat verib. Həmçinin Şərur rayonu üzrə mövcud vəziyyət, ailə məsələləri ilə bağlı statistik təhlillər və əldə olunan nəticələr barədə tədbir iştirakçılarını məlumatlandırıb.



Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxışında bildirib ki, uşaq hüquqlarının müdafiəsi, ailələrin rifah halının yaxşılaşdırılması, erkən nikahın qarşısının alınması hər zaman dövlətimizin qarşısında duran prioritet məsələ olub və bu istiqamətdə bir çox qanun və normativ-hüquqi aktlar qəbul olunub.

Ramilə Seyidova ailə dəyərlərimizin qorunub saxlanılmasının əhəmiyyətindən danışıb, erkən nikahın psixoloji, sosial, iqtisadi, tibbi aspektdən olan fəsadları haqqında ətraflı məlumat verib, bu istiqamətdə fikir və çıxış yollarını iştirakçılarla bölüşüb. Həmçinin tədbirdə iştirak edən Şərur Rayon Dini İcmasının nümayəndələrinə bu istiqamətdə təbliğat işi və ailələrə müvafiq köməklik göstərilməsi ilə bağlı tövsiyələrini bildirib.

Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Yeganə Məmmədova, Şərur Regional Tibb Mərkəzi publik hüquqi şəxsin Ginekologiya şöbəsinin müdiri Ofelya Camalova, Şərur Rayon Polis İdarəsinin İctimai təhlükəsizlik şöbəsinin yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili qrupunun inspektoru İsa Məhərrəmov, Şərur Rayon Dini İcmasının sədri, axund Tahir Heydərzadə mövzu ətrafında öz fikirlərini bildirib, problemin həllində ictimaiyyətin bütün təbəqələrinin, həm dövlət qurumlarının və qeyri-hökumət təşkilatlarının, həm də cəmiyyətin bütün üzvlərinin fəal iştirakının vacibliyi qeyd olunub.

Çıxışların ardından tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

Sonda “Erkən nikaha yox deyək!” adlı videoçarxa baxış olub.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

### *İtmişdir*

Babək rayonunun Şıxmahmud kəndində Mənsimov Vüqar Əhməd oğlunun adına olan JN-948A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Nehrəm qəsəbə sakini Əliyev Fikrət Hümbət oğlunun adına olan 2803A nömrəli torpağın mülkiyyət hüququna dair şəhadətnamə itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Kalbaoruc Dizə kəndində Quliyev Qəşəm Məmmədqulu oğlunun adına olan JN-12A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Axaməd kənd sakini Cəfərov Əhməd Məmmədbağır oğlunun adına olan JN-211A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Bədəlov Ağababa Əfsərağa oğlunun adına olan Azərbaycan Respublikası Silahlı Qüvvələri zabitinin MM-0056300 nömrəli şəxsi vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayonunun Qarabağlar kənd sakini Əhmədov Xəlil Hüseyn oğlunun adına olan JN-745A nömrəli, 10209018 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən Güneri Leyla Arif qızına məxsus 12 dekabr 2017-ci il tarixli A-004465 və A-017636 nömrəli torpaq sahələrinin plan və ölçüləri itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Vayxır kənd sakini Məmmədov Abbas Həsən oğlunun adına olan JN-126A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Düdəngə kənd sakini Orucov Asif Sədi oğlunun adına olan JN-153 nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şərur şəhər sakini Seyidova Gülnarə Müzəffər qızına məxsus Mikayıl Müşfiq küçəsi 412 ünvanında yerləşən, 102011000057-05101-093003 reyestr nömrəli mənzilin texniki pasportu və çıxarışı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, 6-cı məhəllə 67 ünvanda Babayev Elxan Xəlil oğlunun adına olan AA-006128 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, 6-cı məhəllə 67A ünvanda Babayev Elxan Xəlil oğlunun adına olan AA-006129 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Yengicə kənd sakini Sucayev Müzəffər Mirməmməd oğlunun adına olan JN-426A nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

ŞƏRQqapısı

Baş redaktor:
SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli
Dizayner: Tacirə Vəliyeva

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 131